RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 268 (8861) CÜMƏ, 10 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlk Zəfər Paradı - Böyük Qələbənin nidası

## İlham Əliyev Qalib Sərkərdə kimi güclü ordumuzun qüdrətini, məğlub Ermənistanın rəzilliyini dünyaya nümayiş etdirdi

Tarix 10 dekabr 2020-ci il.

Paytaxt Bakıda qüvurverici tarixi hadisə yaşanır. Azadlıq meydanı illər sonra əzəmətli bir olaya şahidlik edir. Hərbi orkestrin səsləndirdiyi Zəfər Marşının sədaları altında iki qüdrətli qardaş dövlət - Azərbaycan və Türkiyə silahlı qüvvələrinin 3000 nəfər şəxsi heyəti addımlayır. Qürurverici, iftixar dolu bir səhnə dünyaya Azərbaycanın qüdrətini nümayiş etdirir. O qüdrət ki, cəmi 44 günə düşməni pərən-pərən salıb qarşısında diz çökdürdü, şanlı Azərbaycan bayrağını 28 ildən sonra yenidən Şuşada dalğalandırdı.

Noyabrın 8-də Şuşaya sancılan həmin bayraq Azadlıq meydanında dalğalanırdı. Hansı ki bunu Ali Baş Komandan İlham Əliyev tarixi Zəfərdən xeyli öncə söyləmişdi. Paradda da həmin fikri bir daha xatırlatdı: “Bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyinə qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğal altında olan torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi”.

### Gücün, qüdrətin nümayişi

Qələbə paradı təkcə ölkəmizin düşmən üzərindəki qələbəsinin təntənəsi deyildi. Bu, həm də bölgədə erməni faşizminin məhv edilməsinin nümayişi idi.

Bu günü düz, 30 il gözlədik. 30 ildə çox acılar çəkdik, faciələr, məşəqqətlər gördük. Müstəqilliyimizi belə əlimizdən almaq istədilər. Amma bacarmadılar. Azərbaycan illərlə ikili standartlara , təzyiqlərə məruz qalsa da, ayaqda durmağı bacardı. Ona görə bacardı ki, qətiyyətli, prinsipial rəhbəri, xalqın sözünü deyən, güvənilən Lideri, ən əsası da Müzəffər Ali Baş Komandanı vardı...

*Ardı 3-cü səh.*

## Almaniya Federativ Respublikasının Federal Kansleri zati-aliləri cənab Olaf Şoltsa

Hörmətli cənab Federal Kansler!

Almaniya Federativ Respublikasının Federal Kansleri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimiyyətlə təbrik edir və ən xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə Almaniya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına xüsusi əhəmiyyət veririk. Siyasi, iqtisadi və mədəni sahələrdə səmərəli əməkdaşlığımız dövlətlərarası münasibətlərimizi səciyyələndirən mühüm amillərdəndir.

İnanıram ki, gələn il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2021-ci il*

## Gürcü siyasətçi: “Prezident İlham Əliyevin əraziləri işğaldan azad etməsi 100 ildə bir dəfə baş verən mühüm hadisədir”

**Azərbaycan Prezidenti İlham Əliyevin ərazilərin işğaldan azad edilməsinə nail olması 100 ildə bir dəfə baş verən mühüm hadisədir. Azərbaycan xalqı xoşbəxtdir ki, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin Prezident İlham Əliyev kimi layiqli davamçısı var. AZƏRTAC xəbər verir ki, bu sözləri “Vahid Gürcüstan” Partiyasının lideri Nino Burcanadze söyləyib.**

**Onun sözlərinə görə, Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə xalqının ən böyük arzusunu yerinə yetirdi. “Bu gün Prezident İlham Əliyev atasının, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin layiqli davamçısıdır. O da Gürcüstanın böyük dostudur. Azərbaycan xalqına və Prezidentinə uğurlar arzulayıram. İnanıram ki, Azərbaycan-Gürcüstan münasibətlərinə bundan sonra da xələl gətirilməyəcək”, - deyə N.Burcanadze vurğulayıb.**

## 2022-ci ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər və “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci ildə növbəti “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1.000.000 (bir milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1293) 2-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Təşkilat Komitəsinin sədri**

Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

**Təşkilat Komitəsinin üzvləri**

Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Fərid Qayıbov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Emin Əmrullayev - Azərbaycan Respublikasının təhsil naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri

Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Məleykə Abbaszadə - Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri

Ülvi Quliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Balakişi Qasımov - İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2021-ci il*

◆ **Zəfərin izi ilə**

## Qalibiyyətimizi dünyaya bəyan edən parad

**Azərbaycanın 44 günlük Vətən müharibəsindəki möhtəşəm Qələbəsinə həsr olunmuş, ötən il dekabrın 10-da təşkil edilən Zəfər paradının keçirilməsindən 1 il vaxt ötür.**

**Çox qısa zaman ərzində təşkil olunan parada hazırlıq işlərinə Ermənistanın kapitulyasiya aktı imzalamasından dərhal sonra başlanılmışdı. Şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış müharibənin bitməsindən cəmi bir ay sonra keçirilən parad əvvəlkilərdən tam fərqli, qeyri-adi idi. Çünki bu parad Qələbə paradı idi. Bu paradda Azərbaycan işğalçı Ermənistan üzərində qazandığı qələbəni, torpaqlarımızın ərazi bütövlüyünün öz gücümüz hesabına təmin edildiyini dünyaya nümayiş etdirdi.**

*Ardı 4-cü səh.*



## Ermənistan silahlı qüvvələri Kəlbəcər istiqamətində növbəti təxribata əl atıb

Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində növbəti təxribata əl atıblar.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 9-u saat 15.00 radələrində Ermənistan hərbi bölmələri Basarkeçər rayonu istiqamətində yerləşən döyüş mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonundakı mövqelərini atəşə tutublar.

Ordumuzun bu istiqamətdə yerləşən bölmələri tərəfindən müvafiq tədbirlər görülüb.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Mustafa ŞENTOP: "Azərbaycanın Vətən müharibəsində Zəfəri regionun inkişafı, sülh və əməkdaşlıq baxımından əhəmiyyətlidir"



İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının (İƏT Pİ) XVI Konfransında iştirak etmək üçün İstanbulda səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 9-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin üzvlərini səmimi salamlayan Mustafa Şentop görüşdən məmnunluğunu ifadə edib.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərdən sonra Qarabağda, eləcə də Cənubi Qafqazda yeni imkanların yarandığını vurğulayan Türkiyə parlamentinin Sədri bu Qələbənin regionun inkişafı, gələcək imkanlar, sülh və əməkdaşlıq baxımından əhəmiyyətini xüsusi qeyd edib. İşğaldan azad olunan Azərbaycan ərazilərinin bərpası və yenidən qurulması məsələlərinə toxunan Mustafa Şentop, həmçinin Zəngəzur dəhlizinin açılması ilə bölgədə yaranacaq yeni imkanlar və bunun bütün türk dövlətlərinə müsbət təsirini xüsusi qeyd edib. O, iki qardaş ölkə arasındakı münasibətlərin, birlik və həmrəyliyinin hər zaman olduğu kimi, bundan sonra da davam edəcəyini vurğulayıb.

Öz növbəsində dəvətə və səmimi qarşılanmaya görə təşəkkürünü bildirən Sahibə Qafarova Türkiyədə özlərini Vətəndəki kimi hiss etdiklərini bildirib. Sahibə Qafarova Azərbaycanla Türkiyə arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin çox möhkəm təməllərə əsaslandığını bildirərək qeyd edib ki, dövlət başçılarımızın şəxsi dostluq münasibətləri ölkələrimiz arasındakı birliyin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynayır.

Milli Məclisin Sədri noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsünə uyğun olaraq İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən Qoşulmama Hərəkatının Parlamentlər Şəbəkəsinin təsis iclasında verdiyi dəstəyə görə Türkiyə tərəfinə minnətdarlığını ifadə edib.

Azərbaycanın tarixi Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsini xatırladan Sahibə Qafarova hər zaman olduğu kimi, bu dövr ərzində də Türkiyə dövlətinin və xalqının daim Azərbaycanın yanında olduğunu bir daha vurğulayıb. O deyib ki, dünya 44 günlük Vətən müharibəsində bir daha Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin şahidi oldu.

İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının XVI Konfransının yüksək səviyyədə təşkil olunduğunu vurğulayan Sahibə Qafarova Azərbaycanın sözügedən qurumla əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirib. Milli Məclisin Sədri İƏT-in ölkələr arasında əlaqələrdə güclənən rolu, dünyada artan islamofobiya və onun yaratdığı təhlükələr, COVID-19 pandemiyasına qarşı qlobal mübarizə və bir sıra digər məsələlər haqqında fikirlərini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin nümayəndə heyəti İƏT Parlament İttifaqının XVI Konfransında iştirak edir

Dekabrın 9-da İstanbulda İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının (İƏT Pİ) XVI Konfransı işə başlayıb. AZƏRTAC xəbər verir ki, konfransda ölkəmiz Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti tərəfindən təmsil olunur.

Türkiyə Böyük Millət Məclisinin evsahibliyi etdiyi tədbirin builki mövzusu "Paylaşım, vicdan və İslam: Fələstin, miqrasiya və Əfqanıstan"dır.

Tədbir çərçivəsində quruma rəhbərlik Burkina-Fasodan Türkiyəyə keçəcək.

Konfransda İƏT Pİ-yə üzv 38-ə yaxın ölkənin nümayəndə heyətləri iştirak edir.

Milli Məclis Sədrinin İƏT Pİ-nin 16-cı konfransında çıxışı gözlənilir. Parlament Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətləri rəhbərləri ilə bir sıra görüşləri də nəzərdə tutulub. Görüşlərdə təşkilat çərçivəsində əməkdaşlığın gələcək inkişaf istiqamətləri, parlamentlərarası əlaqələrin dərinləşməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

Səfər dekabrın 11-də başa çatacaq.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı Ceyhun Məmmədov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

# Volfqanq MANİQ: "Almaniya ilə Azərbaycan arasında, xüsusilə enerji sahəsində münasibətlər strateji əhəmiyyət kəsb edir"

Dekabrın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniqi qəbul edib.



Xarici İşlər Nazirliyi Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Almaniyada yeni hökumətin formalaşdığını və yeni kanslerin seçildiyini qeyd edən səfir Volfqanq Maniq Azərbaycan ilə münasibətlərin möhkəmlənməsinə önəm verildiyini bildirib. İki ölkə arasında, xüsusilə enerji sahəsində münasibətlərin strateji əhəmiyyət kəsb etdiyi vurğulanıb. Almaniyada yeni hökumətin alternativ enerjiyə keçmək ilə bağlı məqsədlərindən danışan səfir təbii qazın bu xüsusda keçid enerjisi rolunda çıxış etdiyini söyləyib. Diplomat gələn il təşkil olunacaq "Berlin Enerji Keçidi Dialoqu" tədbiri barədə məlumat verib.

Nazir Ceyhun Bayramov Almaniyada yeni Kanslerin seçilməsi və yeni hökumətin formalaşması ilə bağlı təbriklərini çatdırıb. O, iki ölkə arasında dostluq və yüksəksəviyyəli əməkdaşlıq münasibətlərinin yeni hökumətlə də davam etdiriləcəyinə ümidini ifadə edib. Ölkəmizin Avropa, o cümlədən Almaniyanın enerji sahəsində etibarlı tərəfdaşı olduğunu vurğulayan nazir yaşıl enerji və iqlim məsələlərinin Azərbaycan hökumətinin gündəliyində duran əsas məsələlərdən olduğunu söyləyib. C.Bayramov azad olunmuş Qarabağ ərazisinin dövlətimizin başçısı tərəfindən "yaşıl enerji zonası" elan edildiyini Almaniya səfirinin diqqətinə çatdırıb.

Nazir Ceyhun Bayramov, həmçinin bölgədə mövcud olan ən son vəziyyət, o cümlədən Ermənistan ilə münasibətlərin normallaşması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə səfirə məlumat verib. Ermənistanın bu addımlara hələ də qarşılıq vermədiyi, eyni zamanda, təxribatçı əməllərini davam etdirərək bölgədə sülhün təmin olunması prosesinə xələl gətirdiyi diqqətə çatdırılıb.

Görüşdə tərəflər münaqişə sonrası mərhələdə bölgədə sülh və təhlükəsizliyin təmin olunması, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Milli Məclisin komitəsi Kipr Respublikası Nümayəndələr Palatasının təxribat xarakterli qətnaməsinə kəskin etirazını bildirib

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Kipr Respublikasının nümayəndələr palatası tərəfindən qəbul edilmiş təxribat xarakterli, həqiqətə uyğun olmayan qətnamə ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda dekabrın 3-də Kipr Respublikasının Nümayəndələr Palatası tərəfindən "Azərbaycanın ermənilərə qarşı davamlı təcavüzü və Dağlıq Qarabağdakı mövcud vəziyyət" adlı təxribat xarakterli, əsassız və həqiqətə uyğun olmayan qətnamənin qəbul edilməsi ilə əlaqədar kəskin etiraz ifadə olunur.

Bəyanatda deyilir: "Kiprli deputatların nəzərinə çatdırmaq istərdik ki, regionda sabitliyi pozmağa yönəlmiş bu cür təxribatlar 30 il ərzində Azərbaycan ərazisinin 20 faizini qeyri-qanuni olaraq işğal altında saxlayan, bütün Azərbaycan əhalisini etnik təmizləməyə məruz qoyan, Xocalı soyqırımını törədən və bölgəni yenidən xaos və müharibə vəziyyətinə qaytarmağa çalışan qüvvələrə xidmət edir.

Müharibəyə son qoyaraq regionda dinc yaşayışın yeni mərhələsinə şərait yaradan, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən üçtərəfli Bəyanatın imzalanmasından artıq bir il ötür. Hazırda Qarabağın dirçəldilməsi, məcburi köçkünlərin öz evlərinə qaytarılması, regionda yeni infrastrukturun qurulması ilə yanaşı, xalqlar arasında etimad tədbirlərinin də gücləndirilməsi üçün böyük səylər göstərilir.

Bu gün Azərbaycan bütün səviyyələrdə hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olduğunu açıq şəkildə bəyan etdiyi və heç bir şərt olmadan delimitasiya və demarkasiya prosesinə başlamağa hazır olduğu halda buna qarşı çıxan da məhz bu qüvvələrdir.

Təəssüflər olsun ki, Kipr Nümayəndələr Palatasının deputatları bu lüzumsuz qətnaməyə səs verərək özlərini və parlamentlərini dəyərdən salmış, qisas və müharibəyə can atanlarla eyni səviyyəyə qoymuşlar. Onların regionda sülhün bərqərar olması səylərini dəstəkləmək əvəzinə, sadə insanların dərdindən, iztirabından öz çirkin siyasi oyunlarında istifadə etməyə çalışanların ardınca getmələri təəssüf hissi doğurur.

Sülh və əmin-amanlığa məhəl qoymayaraq bu cür qərəzli, əsassız qətnamənin qəbul edilməsi regiondakı yeni reallığı dəyişdirmir, əksinə, bu cür qətnamələri qəbul edənlərin özlərinə xələl gətirərək obyektivliklərinə ciddi şübhə yaradır".

# Milli Məclisdə postmünaqişə dövründə qarşıya qoyulan məqsədlər barədə müzakirələr aparılıb



Dekabrın 9-da Birləşmiş Krallığın Münaqişənin və sabitliyin birgə təhlili qrupunun üzvləri Helen Makkenzi və Rayan Qrist Milli Məclisdə olublar.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin deputatı Tural Gəncəliyev qonaqlarla görüşərək Xankəndi seçki dairəsini təmsil etdiyini və Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü olduğunu qeyd edib. Deputat 44 günlük Vətən müharibəsi nəticəsində azad edilmiş ərazilərdə Azərbaycan dövlətinin həyata keçirdiyi geniş bərpa-quruculuq işləri, məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz şəraitdə qayıdışına hazırlıq prosesindən bəhs edib. O, Ermənistanın işğalından azad edilmiş ərazilərdə işğal dövründə tamamilə dağıdılmış infrastrukturun, şəhər və kəndlərin yenidən inşası kimi işlərə Azərbaycanın gələn il üçün dövlət büdcəsində 2,2 milyard manat vəsait ayrıldığını diqqətə çatdırıb. T.Gəncəliyev işğaldan azad edilmiş ərazilərimizdə bir sıra ölkələrin, o cümlədən Birləşmiş Krallığın da iştirakı ilə layihələrin həyata keçirilməsindən məmnuniyyətlə bəhs edib.

Dekabrın 9-da Şuşa rayonunda iki mülki şəxsin minaya düşərək həlak olmasını qonaqların nəzərinə çatdıran deputat ərazilərin minalardan təmizlənməsi istiqamətində beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Tural Gəncəliyev Azərbaycanın bölgədə sülhün möhkəmlənməsi, kommunikasiyaların açılması, iqtisadi əməkdaşlığın qurulması istiqamətində təşəbbüslərdə, erməni əsilli vətəndaşlarının siyasi, iqtisadi və humanitar sahələrə reinteqrasiyasında maraqlı olduğunu qeyd edib.

Sonra Rayan Qrist və Helen Makkenzi postmünaqişə dövründə qarşıya qoyulan məqsədlər, sülhün möhkəmləndirilməsi, keçmiş münaqişə zonasında dinc birgəyaşayışın təşkili kimi məsələlərlə bağlı suallarını səsləndiriblər. Sual-cavab formatında davam edən görüşdə bu istiqamətdə əməkdaşlıq imkanlarına toxunulub, fikir mübadiləsi aparılıb.

Sonra Birləşmiş Krallığın Münaqişənin və sabitliyin birgə təhlili qrupunun üzvləri Helen Makkenzi və Rayan Qrist Milli Məclisin deputatı Erkin Qədirli ilə görüşüblər. Deputat bir müddət əvvəl Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfərin birinci ildönümünü qeyd etdiyini bildirib. Qazanılan qələbə nəticəsində ölkəmizin öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdiyini deyən E. Qədirli qonaqların diqqətinə çatdırıb ki, Ermənistan silahlı qüvvələrinin 30 il ərzində torpaqlarımızı işğal etməsi Azərbaycan vətəndaşlarını öz doğma yurd-yuvalarından didərgin salıb. İşğal müddətində Ermənistan Azərbaycan ərazilərində, şəhər və kəndlərimizdə infrastrukturu tamamilə məhv edib, ölkənin maddi-mədəni irsinə ağır zərbələr vurub.

Bildirilib ki, hazırda Qarabağda bərpa və quruculuq işləri uğurla həyata keçirilir. Azad edilmiş şəhər və kəndlərdə müasir infrastruktur yaradılır. "Ağıllı şəhər", "Ağıllı kənd" layihələri reallaşdırılır. Doğma torpaqlarından müvəqqəti didərgin düşmüş soydaşlarımızın öz yurdlarına qayıtması üçün bütün lazımi şərait yaradılır.

Qeyd olunub ki, Azərbaycan hər zaman regionda sülhün və əmin-amanlığın bərqərar olmasının, ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarı olub və bu istiqamətdə öz səylərini əsirgəməyib.

Görüşdə Erkin Qədirli qonaqları maraqlandıran məsələlərə aydınlıq gətirib, onların suallarını cavablandırıb.

# Bali Demokratiya Forumunda Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizəyə verdiyi töhfələrdən danışılıb

Dekabrın 9-da İndoneziyada Bali Demokratiya Forumunun "İnsanlıq üçün demokratiya: pandemiya dövründə iqtisadi və sosial ədalətin təşviq olunması" mövzusunda 14-cü sessiyası keçirilib. Tədbirdə Azərbaycan Respublikasını xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, sessiyada onlayn formatda iştirak edən Mahmud Məmməd-Quliyev çıxışında Azərbaycanın COVID-19 pandemiyası ilə qlobal mübarizəyə verdiyi töhfələri vurğulayıb, ölkəmizin "vaksin millətçiliyinə" qarşı çıxdığını qeyd edib. Bu xüsusda o, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ölkəmizin Qoşulmama Hərəkatının sədri qismində təklifi əsasında 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirildiyini, eləcə də Qoşulmama Hərəkatı adından Azərbaycanın irəli sürdüyü "Bütün ölkələrin vaksinlərə bərabər və universal əlçatanlığının təmin edilməsi" barədə qətnamənin BMT-nin İnsan Hüquqları Şurasında konsensusla, BMT Baş Assambleyasının 3-cü komitəsində isə dövlətlərinin böyük əksəriyyəti tərəfindən dəstəklənərək qəbul edildiyini xatırladıb.

Nazir müavininin çıxışında, həmçinin ölkə daxilində pandemiya dövründə əhalinin sosial və iqtisadi hüquqlarının təmin edilməsi istiqamətində görülən tədbirlər öz əksini tapıb.

Mahmud Məmməd-Quliyev 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla Ermənistan və Azərbaycan arasında 30 ilə yaxın davam etmiş münaqişəyə son qoyulduğunu, 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin ərazi bütövlüyünün təmin olunduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. Davamlı sülhün və inkişafın Azərbaycanın gələcəyə baxışının əsasını təşkil etdiyini bildirən nazir müavini üçtərəfli bəyanatların tam həyata keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

Çıxışı zamanı nazir müavini, əsrlər boyunca müxtəlif etnik və dini qrupların birgə, dinc yaşadığı Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə önəm və töhfə verməsindən bəhs edib. Bu xüsusda ölkəmizin bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etdiyi vurğulanıb.

Forumda bir çox dünya və region dövlətlərinin ictimai və siyasi xadimləri, o cümlədən ABŞ dövlət katibi Entoni Blinken və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxış ediblər.

Məlumat üçün bildirmək istərdik ki, Bali Demokratiya Forumu İndoneziya hökumətinin təşəbbüsü ilə 2008-ci ildən etibarən keçirilir. Forumun məqsədi Asiya-Sakit okean və daha geniş regionda demokratiyanın müsbət təcrübələrin mübadiləsi yolu ilə təşviqinə xidmət etməkdədir.

# «ABAD»

## şimal bölgəsinin ən müasir müəssisəsi olacaq

Quba rayonu Azərbaycanın dilbər güşələrindən biridir. Burada dağlar və insanlar bir-birinə ruhən oxşardırlar. Bu yerlərin təbii mənzərələri necə gözəl və möhtəşəmdirsə, insanları da bir o qədər zəngin və məğrurdur.

Amma Quba uzun illər iki ciddi problemdən əziyyət çəkirdi. Birincisi, ucqar dağ kəndlərinin qazla təchiz olunmaması meşələrə, sözün əsl mənasında, divan tuturdu. Meşə oğrularının qarşısını almaq çətin idi. İkincisi, həm sovetlər dönəmində, həm də müstəqilliyimizin ilk iki onilliyi boyu meyvəçilik inkişaf etdikcə və məhsul artdıqca yeşiklərə olan tələbatın artması meşələrin qırılmasına səbəb olurdu. Rayonda bağ sahiblərinin yeşiklərə tələbatı meşələrə gecəyarısı balta, mişarla hücum çəkənlərin sayını çoxaldırdı. Bir çox kəndlərdə gecə işləyən gizlin yeşik sexlərinin elektrik mişarlarının uğultusu aləmi başına götürürdü.

Bu sexləri üzə çıxarmaq üçün reydlər keçirilirdi, onlar cərimələnirdi, meşəbəyilər oğruların qarşısını almaq üçün çox vaxt yuxularına haram qatırdılar. Ancaq meyvə yeşiklərinə artan tələbat sexlərin və meşə oğrularının varlığını qaçılmaz edirdi. Kəndlərdə beş-on manat pul qazanmaq istəyənlər bu sexlərlə əlbir olub işləyirdilər. Hətta yeri gələndə meşebəyiləri də nəzarətə götürmək lazım gəlirdi.

Qubanın qazlaşdırılması dövlət tərəfindən ilk növbədə ekoloji baxımdan atılan ən ciddi addımlardan biri oldu. Kəndlərdə odun sobaları qaz isidicilərilə əvəz edildikdən sonra meşələrin qırılması bir qədər səngidi.

Meyvə yeşiklərinin istehsalına gəldikdə, Bakıda fəaliyyət göstərən müəssisələr artıq Qubanı və umumiyyətlə, ölkənin bütün rayonlarını kardon və plastmas taralarla təchiz edirlər. Artıq Qubanın tara bazarında, axtarsanız belə, taxta yeşiklərə rast gələ bilməzsiniz. Rayonun fermerləri neçə illərdir müasir qablaşdırmaya üstünlük verir və yaxşı bilirlər ki, alma yeşiyi nə qədər səliqəli olarsa, bazarda malları bir o qədər yaxşı satılar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın bu il dekabrın 6-da "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında iştirak etməsi bir daha onu deməyə imkan verir ki, Qubanın, qubalı meyvə istehsalçılarının ən böyük problemlərindən biri öz həllini artıq tapmışdır.

Qeyd edək ki, "ABAD Factory" qubalı mikro və kiçik sahibkarlara qida istehsalı müəssisəsi kimi artıq bir neçə ildir tanış idi. Amma indi o, həm də qablaşdırma vasitələrinin istehsalı müəssisəsi kimi Quba fermerlərinin əlindən tutacaq. Məhz Quba rayonunun ərazisində belə bir müəssisənin qurulması iqtisadi baxımdan həddən ziyadə əlverişlidir. Belə ki, həm Quba, həm də Qusar, Xaçmaz və bütün qonşu rayonlarda bağçılıq sütətlə inkişaf edir. Fermerlər yeni gilas, alma, armud, şaftalı və ərik bağları salır, çiyələk, moruq və hətta böyürtkən yetişdirməyə başlayıblar. Artıq fermerlərin müxtəlif ölçülü meyvə qablarına ehtiyacları var. Fermer İmran Qədimov danışır ki, taranı Bakıdan gedib alırdı: "Məsələ burasındadır ki, tara nə qədər uzaqdan gəlirsə, qiyməti bir o qədər baha olur. Bəzən də elə olur ki, malına müştəri tapırsan, amma tara almağa pulun yoxdur. Meyvə mövsümündə borc pul da tapmaq çətindir, çünki hələ mal satılmayıb və qazanc götürülməyib. Amma istehsalçı rayonda yerləşəndə, onunla tanış olursan, etibar qazanırsan və yeri gələndə maneəsiz lazımi qədər tara da götürə bilirsən. Ona görə çox sevinirik ki, rayonumuzun ərazisində belə gərəkli müəssisə yaradılıb.

Fermerlər Qubada müxtəlif çeşidli taraların hazırlanmasını alqışlayırlar. Belə ki, Rusiya bazarında bizim fermerlər etiraf edirlər ki, uzun illər buraya mallarını pis qablarda gətirdikləri üçün yaxşı sata bilməyiblər. Yeşiklərinin xarici görünüşü digər satıcılara onları bazarda üstələməyə imkan verib: "Halbuki nadir ölkənin mer-meyvəsi bizimki ilə rəqabətə girə bilər. Amma uzun illər rəqabətdə uduzmuşuq".

Ölkənin şimalında həyata keçirilən islahatları qubalılar ürəkdən alqışlayır və şəxsən dövlət başçısına təşəkkür edirlər.

Qubalılar yaxşı xatırlayır ki, müəssisənin yerləşdiyi binanın uzun illər əsaslı təmirə ehtiyacı var idi. İstifadəsiz qalan bu obyekt öz görkəmi ilə ürəkləri sıxırdı. Əsaslı təmirdən sonra binanın xarici görkəmi müəyyən qədər dəyişsə də, memarlıq elementlərinin qorunmasına üstünlük verilib.

Burada istehsal olunacaq qablaşdırma məhsullarının siyahısı genişdir. Belə ki, kartondan müxtəlif ölçüdə və formada qablaşdırma məmulatları, kağız və etiketlər istehsal ediləcək, promo məhsullar hazırlanacaq, eyni zamanda tullantı kağızların preslənməsi ilə məşğul olan sahə yaradılacaq.

Xatırlatmaq yerinə düşərdi ki, "ABAD" Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı fərmanla yaradılmışdır. Müəssisədə əlavə istehsal sahələrinin təşkili, yeni çeşidli məhsulların bazara çıxarılması onu deməyə əsas verir ki, "ABAD" ölkədə aparılan islahatlarda, yeni texnologiyaların yaradılmasında və müasir dünya təcrübəsinin tətbiqində ölkə iqtisadiyyatı ilə ayaqlaşmağa çalışan bir müəssisə kimi fəaliyyətini uğurla davam etdirəcək.

Müəssisənin regionun həyatında yaxından iştirak etməsi də göz önündədir. Belə ki, bu ilin 10 ayında "ABAD" 500 ailəyə dəstək göstərmişdir. "ABAD"çıların yüzlərlə çeşiddə sənətkarlıq, kənd təsərrüfatı və digər növ məhsulları satışa çıxarılmışdır. Ümumilikdə 5,5 milyon manat dəyərində məhsulun "ABAD" vasitəsilə satışı həyata keçirilmişdir. Müəssisə tam fəaliyyətə düşdükdən sonra ölkənin şimal bölgəsinin iqtisadiyyatında daha vacib rol oynayacaq, yeni məhsulları ilə Azərbaycan brendinin formalaşmasına töhfəsini verəcək.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Möhtəşəm Zəfərin rəmzi





"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". - Ali Baş Komandan İlham Əliyevin vaxtilə torpaqlarımız işğal altında olarkən səsləndirdiyi bu fikirləri o vaxt çoxları gerçəklik kimi qəbul etmirdi. Lakin cənab İlham Əliyev bütün mötəbər kürsülərdən "Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq" nidasını dünyaya bəyan edirdi. Bu, gəlişi gözəl sözlər deyildi, ölkənin rəhbəri, Silahlı Qüvvələrirn Ali Baş Komandanı tərəfindən səsləndirilən bu fikirlərin arxasında böyük həqiqətlər dayanırdı. Lakin məğlubiyyətlə barışmazlıq təkcə yetərli deyildi. Bu gerçəyi funksional siyasətə çevirmək üçün böyük səbir və mətanətlə bərabər, xalqı bu ideya ətrafında səfərbər etmək lazım idi. Bu isə üç amili özündə birləşdirirdi: güclü iqtisadiyyat, güclü ordu, vətənpərvər gənclik.

## Böyük Qələbənin rəhni

Azərbaycanı müstrəqilliyini itirmək təhlükəsindən qurtaran Ümummilli Lider Heydər Əliyev "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" şüarını söyləyərək bu strateji hədəfə çatmaq üçün yaratdığı münbit şəraiti uğurla öz siyasi varisinə ötürdü.

Azəbaycanın müstəqillik illərində sahib olduğu iqtisadi qüdrəti böyük qələbə üçün zəmin yaratdı. Məhz cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasət nəticəsində Azərbaycan iqtisadi baxımdan inkişaf edərək torpaqlarının azad edilməsinə nail oldu. Çünki iqtisadi inkişaf bizim Qələbəmizin əsasını təşkil etdi. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, ordumuzu müasir silahlarla təchiz edə bilməzdik. Eyni zamanda Azərbaycan yeni neft strategiyası sayəsində Ermənistanı regionda həyata keçirilən transmilli layihələrdən kənarda saxladı.

Ordu quruculuğunun təməl daşlarının Heydər Əliyev tərəfindən düzgün qoyulması, uğurlu siyasi varis İlham Əliyev tərəfindən davam etdirilməsi Böyük Qələbənin rəhninə çevrildi.

Tarix göstərir ki, hər hansı milləti kölə vəziyyətinə salmaq üçün ona keçmişini, milli ənənələrini unutdurmaq və yaxud da kökündən uzaqlaşdırıb yaxın çağlara gətirmək yetərlidir. Xalqın qərinələr boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal şəxsiyyətlərin üzərinə düşür. Dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfələrini verən, multikultural dəyərləri ilə seçilən, birgə yanaşı yaşamaq modelini nümayiş etdirən, müasirləşən və modernləşən Azərbaycan milli-mənəvi dəyərlərinə də böyük diqqət və həssaslıqla yanaşır. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva xalqının zəngin milli-mənəvi irsinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması naminə əzmlə çalışaraq bu missiyanı ləyaqətlə yerinə yetiriblər. Vətənpərvər gəncliyin yetişməsi və bu kontekstdə hərbi potensialının gücləndirilməsi daim dövlətimizin diqqət mərkəzində olub.

Ordumuzun tarixi ənənələrə sahib olmasını heç vaxt unutdurmayan Ümummilli Lider Heydər Əliyevin xidmətləri müstəsna əhəmiyyətə malikdir. Özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmiş Azərbaycan Respublikası, müstəqilliyinin ilk illərində oktyabrın 9-nu Ordu günü kimi qeyd etsə də, Ümummilli Lider Heydər Əliyev tarixi ənənəni yaşatmaq üçün 22 may 1998-ci il tarixdə Fərman imzalamış və Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaradıldığı 26 İyun tarixini Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan etmişdir.

Bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilmişdir. Azərbaycan Ordusunun tarixinin dərindən öyrənilməsi və təbliğ edilməsi xüsusi diqqət mərkəzində oldu. Bu mənəvi tərbiyə 44 günülük Vətən müharibəsi dönəmində özünü bariz şəkildə göstərdi.

## Azərbaycan tarixi qarşısında xidmətlərin mükafatı

Ali Baş Komandan İlham Əliyevin böyük qürurla söylədiyi "mənim dövrümdə yetişən vətənpərvər Azərbaycan gəncliyi Qarabağı azad etdi" fikrinin əsas leytmotivini tarixi ənənələrə söykənən vətənpərvərlik tərbiyəsinin nəticəsi təştil edirdi.

Azərbaycan hərb tarixinin öyrənilməsi məsələsini daim diqqət mərkəzində saxlayan cənab İlham Əliyevin 20 noyabr 2014-cü il tarixdə görkəmli hərbi xadim Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi ilə bağlı Fərmanında yazılır: "XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir".

Prezident İlham Əliyevin 29 sentaybr 2015-ci il tarixdə AXC-nin hərbi naziri olmuş Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamında qeyd edilir: "General Səməd bəy Mehmandarov döyüş meydanlarındakı yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir".

Azərbaycan hərb tarixinə yüksək ehtiram gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi, eyni zamanda Prezident İlham Əliyevin soy-kökümüzə, tarixi ənənələrimizə sonsuz ehtiramın nümunəsidir.

Bütün bunlar tarixi Zəfərin təsadüfi olmadığını və bu Qələbəyə həsr edilmiş Zəfər paradının keçirilməsi də 44 günlük Vətən müharibəsinin qalib sərkərdəsi Müzəffər Ali Baş Komandan ünvanını qazanmış Prezident İlham Əliyevin Azərbaycan tarixi qarşısında xidmətlərinin mükafatı idi.

Ulu Öndər bu günləri görürmüş kimi cənab İlham Əliyev haqqında söylədiyi "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikri həyatda öz əksini tapdı. Ölkə Prezidenti kimi İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində ifadə etdiyi "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". Ulu Öndər Heydər Əliyevin xalqımızın xöşbəxt gələcəyinə hesablanmış siyasətinin ardıcıl olaraq uğurla davam etdirilməsi şanlı qələbəmizin akkordlarına çevrildi.

## Qardaşlığın real təzahürü

Bir il əvvəl keçirilən Zəfər paradında çıxış edən İlham Əliyev vurğuladı ki, Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir: "Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Ali Baş Komandan bir daha xatırlatma etdi ki, Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olmuşdu. Əslində, Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salınmışdı: "Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlərboyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır. Ondan sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olunurdu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətmiş, Xocalı soyqırımını törətmişdir. Ondan sonra 1992-ci ilin may ayında Şuşa şəhərinin və Laçın şəhərinin işğala məruz qalması Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi bizim vəziyyətimizi daha da ağırlaşdırdı və faktiki olaraq sonrakı işğalçılıq siyasətinin davam etdirilməsinə səbəb oldu!"

Zəfər paradında tarixi anların şahidi olduq. Şuşa azad edildikdən sonra Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan bayrağımız parada gətirilərək nümayiş etdirildi. Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitləri də iştirak etdilər. Paradı Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir. Paradda yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak etmişdilər. İki ölkə rəhbərinin paradı birgə qəbul etməsi beynəlxalq ictimaiyyətə ciddi mesaj idi. Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi qardaş xalqların tarixində əbədi qalacaq qürurverici hadisədir.

Həmin gün ölkəmizin bütün şəhərlərinin Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilməsi xalqların mənəvi yaxınlığının təzahürüdür. Zəfər paradının ən təsirli və yaddaqalan anlarından biri də qardaş türk xaqlının əsgərlərinin iştirakı idi. Türk əsgərləri həm də şəhidlərimizin rəmzinə çevrildilər. 44 günlük Vətən müharibəsində 2783 Azərbaycan əsgəri şəhid olmuşdur. Məhz Zəfər paradında 2783 türk əsgəri iştirak etməklə şəhidlərin ölməzliyini nümayiş etdirdilər.

## Ermənistanın rəzilliyini göstərən parad

Hərbi paradların keçirilməsi, şübhəsiz ki, həmin ölkənin hərbi qüdrətinin nümayiş etdirilməsi kimi əsas amillərdən biridir. Zəfər paradı qələbəmizin təntənəsini göstərməklə bərabər hərbi qüdrətimizi də nümayiş etdirdi.

Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər paradında 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Həmçinin müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistana məxsus hərbi texnikanın bir qismi nümayiş olunmuşdur.

Vətən müharibəsində qələbə münasibətilə Prezidentin təşəbbüsü ilə "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal təsis olunub - "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə".

Həmin orden və medalların təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına ehtiramın təzahürüdür. Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq qurumların ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşları və mülki işçiləri yüksək orden və medallarla təltif edilib və bu proses hazırda da davam etdirilir.

Hərbi qələbəmizin əbədiləşdirilməsi həmçinin xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması haqqında sərəncam imzalayıb, həmçinin Hərbi Qənimətlər Parkının salınmasının təşəbbüskarı olub.

Onu da qeyd edək ki, Hərbi Qənimətlər Parkının yaradılması Ermənistanda etirazlarla qarşılanmışdı. Azərbaycanın təşəbbüsü ilə ölkəmizə qarşı törədilmiş qanunsuzluqlarla bağlı Beynəlxalq Məhkəmədə iddialar qaldırılmışdır. Ermənistan tərəfinin Hərbi Qənimətlər Parkının fəaliyyətinin dayandırılması ilə bağlı Beynəxalq Məhkəmədə vəsatəti rədd edilmişdir. Hərbi Qənimətlər Parkı müharibənin miqyasını və Qələbənin möhtəşəmliyini göstərir. Yaradılmasına bu ilin yanvar ayından başlanılan və 5 hektar ərazini əhatə edən park paytaxtın Xətai rayonunun ərazisindədir. Parkdakı eksponatlar arasında Silahlı Qüvvələrimizin ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları var. Burada Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

## Türk dünyasında yeni bir mərhələnin başlanğıcı

Heç kimə sirr deyil ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun əks-həmlə əməliyyatının dayandırılması ilə bağlı ciddi təzyiqlər olmuşdur. Bu hadisə barəsində cənab İlham Əliyevin fikirləri maraq doğurur: "Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər".

Məhz cənab İlham Əliyevin möhkəm iradəsi, prinsipiallığı bu məsələdə də müstəsna rol oynamışdır. Cənab Prezident Qələbə haqqında danışarkən bunu məhz Azərbaycan xalqının qələbəsi hesab etmişdir:

"O ki qaldı Qarabağ müharibəsinə, bu, bizim hamımızın Qələbəsidir. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı. Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canıqanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır".

Qarabağda əldə etdiyimiz tarixi qələbənin əhəmiyyətli nəticələrindən biri də Naxçıvanla birbaşa əlaqəni bərpa etmək üçün 1921-ci ildə sovet imperiyasının türk dövlətlərini parçalamaq naminə Ermənistana hədiyyə etdiyi Zəngəzur dəhlizinin açılması olacaq. Bu strateji yol Naxçıvanla birbaşa əlaqənin bərpasına, muxtar respublikanın nəqliyyat blokadasından çıxmasına imkan yaratmaqla yanaşı, həm türk dünyası, həm də region ölkələri üçün gələcəyə açılan bir qapıdır. Bütövlükdə Qafqazın sülh və inkişaf bölgəsinə çevrilməsində regional və beynəlxalq əhəmiyyət daşıyacaq bu dəhlizdən keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirməklə bərabər, eyni zamanda digər ölkələr üçün də əlavə imkanlar yaradacaq. Xüsusilə qeyd etmək lazımdır ki, Avropa ilə Asiyanı bağlayacaq əsas yolun - Zəngəzur dəhlizinin açılması bütün türk dünyasında yeni bir mərhələnin başlanğıcı olacaqdır.

Prezident İlham Əliyev aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı öz münasibətini belə bildirdi: "Biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də, zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Bəli, Zəfər paradının ildönümünü qeyd etməklə bərabər cənab İlham Əliyevin dediyi kimi, yeni dövrdə yeni qələbələrə hazır olmalıyıq.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# İlk Zəfər Paradı - Böyük Qələbənin nidası

*Əvvəli 1-ci səh.*

Düzdür, 10 dekabr tarixinə qədər Azadlıq meydanında hərbi paradlar keçirilmişdi. Ancaq həmin paradlarda nümayiş olunan hərbi texnikalarımıza baxıb xəyal qururduq, arzu edirdik ki, kaş, bu texnikalar bir gün savaş meydanına yürüsün, Qarabağımız işğaldan azad edilsin. O gün də uzaqda deyilmiş. 2003-cü ildə xalqdan etimad mandatı alaraq Prezident seçilən İlham Əliyev 17 il ərzində yürütdüyü tam müstəqil siyasət və hücum diplomatiyası ilə Azərbaycan xalqının arzusunu çin etdi, 30 illik həsrətə son qoydu.

Bakının baş meydanında keçirilən Zəfər paradı Ordumuzun qüdrətini, Azərbaycan-Türkiyə qardaşlığını, Ermənistanın rəzilliyini dünyaya nümayiş etdirdi. 30 il müddətində ordusu haqqında "miflər" yaradan, "keçilməz sədləri" ilə öyünən bir ölkənin silahlı birləşmələri, "dağılmaz-keçilməz" sədləri 44 günə Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Zəfər paradı azərbaycanlılar üçün qürur, şərəf, ləyaqət simvolu oldu, ermənilər üçün isə məğlubiyyət, rəzillik kimi olaraq yaddaşlarda qaldı.

Təsadüfi deyil ki, Azərbaycan Ordusunun şanlı qələbəsi hətta dünyanın supergüc dövlətlərinin hərbi dairələri tərəfindən heyrətlə qarşılanıb və İkinci Qarabağ müharibəsindən dərslər çıxarılması vacibliyi haqda mülahizələr populyarlaşmağa başlayıb.

### Həqiqət və ədalətin qələbəsinin tərənnümü

Zəfər paradı qələbə sevincimizin tərkib hissəsinə çevrildi. Müzəffər ordumuz Azadlıq meydanında qürurla addımladı. Azərbaycan əsgəri böyük ruh yüksəkliyi ilə bu paradda keçid etdi.

Qələbə paradında 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin nümayişi ilə yanaşı, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin də nümayişi qürurverici hadisə oldu. İşğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldu.

Hərbi paradda nümayiş etdirilən qardaşlıq və ən müasir hərbi texnika, o cümlədən raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, təyyarələr, hərbi gəmilər Azərbaycan dövlətinin qüdrətini nümayiş etdirməklə yanaşı, həm də onu göstərdi ki, bundan sonra heç kəs bir daha Azərbaycanla güc və təzyiq dili ilə danışa bilməz. Hər kəs bildi ki, Azərbaycanın rəşadətli Ordusu, peşəkar əsgər və zabitləri, xalqın arxalandığı, güvəndiyi Ali Baş Komandanı var.

Ümumiyyətlə, hərbi parad dövlətin gücünü və vətəndaşların qürurunu nümayiş etdirən bir mərasimdir, xüsusilə də Zəfər paradı. Azərbaycan üçün bu, sadəcə, müharibədə qazanılan Qələbə deyil, həm də həqiqətin, ədalətin qələbəsidir.

Vətən müharibəsində Azərbaycan xalqı təkcə öz ərazilərini geri qaytarmadı, həm də birliyini, vətənpərvərliyini nümayiş etdirdi. Zəfər paradı isə qalib Ordumuzun düşmən üzərində tam və birdəfəlik Qələbəsinin tərənnümü oldu. Qalib Azəraycan əsgərinin paytaxtın baş meydanında məğrur yürüşü ümumxalq həmrəyliyimizin təcəssümü və düşmənə qarşı yumruq kimi birləşmiş bir xalqın müqəddəs Vətən sevgisinin təzahürü oldu.

Prezident İlham Əliyev Zəfər paradındakı çıxışında Vətən müharibəsi ilə bağlı bir sıra mühüm məsələlərə toxunaraq həqiqətləri bir daha bəyan etdi: "Bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim "dəmir yumruğ"umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu "dəmir yumruq" düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bu tarixi hadisəni bütün türk dünyası üçün zəfər və qürur günü adlandıraraq bildirdi ki, Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, Prezident İlham Əliyevə aiddir: "Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirib. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan Ümummilli Lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi altında, inşallah, dastan yazmaqda davam edəcək".

Türkiyə Prezidenti bundan sonra atılacaq addımlardan da danışdı. O vurğuladı ki, artıq hədəf işğaldan azad edilmiş torpaqları firavan, inkişaf etmiş, övladlarımız üçün yaşana bilən bir yerə çevirmək uğrunda mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə çətinliklərin öhdəsindən gəlməyə, yeni uğurlara çatmağa davam edəcək.

Bir sözlə, bu gün xalqımız Zəfər paradının birinci ildönümünü böyük qürur hissi ilə qeyd edir. Müasir tariximizə qızıl hərflərlə yazılan bu misilsiz hərbi nailiyyət haqqında hələ yüz illər sonra da iftixarla danışılacaq, yazılacaq və bu unudulmaz müjdə gələcək nəsillərə ərməğan kimi ötürüləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



◆ Zəfərin izi ilə



# Qalibiyyətimizi dünyaya bəyan edən parad

*Əvvəli 1-ci səh.*

## Türkiyə Prezidentinin paradda iştirakı bağların qırılmaz olduğunu göstərdi

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyət yürüş etdi, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikaların, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin, Azərbaycan Ordusunun döyüş meydanlarında qənimət olaraq götürdüyü erməni texnikalarının bir qismi nümayiş olundu. Bu texnikalar ordumuzun maddi-texniki bazasının zəngin olduğunu təsdiqləməklə yanaşı, Silahlı Qüvvələrimizin gücünü, onun nəyə qadir olduğunu açıq şəkildə göstərdi. Parad Prezident İlham Əliyevin birbaşa diqqəti altında olan müdafiə sahəsinin getdikcə artan gücündən, hərbi qüdrətimizdən xəbər verdi. Bütün bunlar göstərdi ki, Azərbaycan ötən illər ərzində hərbi sahədə yalnız kəmiyyət üstünlüyü əldə etməyə çalışmayıb, həm də əsaslı keyfiyyət dəyişiklikləri aparıb, ordu quruculuğunu düzgün istiqamət üzrə inkişaf etdirib, silahlandırma siyasətini hədəfə uyğun qurub.

Vətən müharibəsinin ilk saatlarından Azərbaycana dəstəyini açıq şəkildə bəyan edən, bu haqlı savaşda daim yanımızda olduğunu dəfələrlə vurğulayan Türkiyə Prezidentinin paradda iştirakı, bu möhtəşəm tədbirdə türk əsgərlərinin Azərbaycan əsgərləri ilə yanaşı yürüş etməsi iki qardaş dövlət arasındakı bağların qırılmaz olduğunu bir daha göstərirdi.

## Təcavüzkara və havadarlarına mesaj göndərildi

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu dekabrın 10-da Azərbaycan xalqının yeni tarixi yaddaşının yarandığını söyləyir. Deputat qeyd edir ki, Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu təcavüzkar Ermənistan ordusunu ağır məğlubiyyətə uğradaraq tarixi ədaləti bərpa etdi. Zəfər paradı təcavüzkar Ermənistana və onun dəstəkçilərinə necə bir dərs verdiyimizi xalqımızın silinməz tarixi yaddaşına həkk etdi: “Azərbaycan dövləti Zəfər paradında özünün hərbi gücünü bir daha nümayiş etdirdi. Dünya bir daha Azərbaycan Ordusunun ən güclü ordulardan biri olduğuna şahidlik etdi. Bununla yanaşı, Ermənistan ordusunun ağır məğlubiyyətinin, rəzil gününün elementləri də Zəfər paradında nümayiş etdirildi. Vətən müharibəsindəki tarixi zəfərimiz həm də bunu göstərdi ki, Azərbaycan xalqı ümummilli maraqlar naminə bir “dəmir yumruq” kimi birləşməyə qadirdir. Vətən sevgisi, torpağa sədaqət bütün maraqlardan və hisslərdən üstündür. Azərbaycan xalqı öz torpaqlarını vandal düşməndən azad etməklə, olduqca mühüm bir president yaratdı. Yeni pozulmuş ərazi bütövlüyü gec və ya tez bərpa olunur. Sadəcə, sonadək yorulmadan mübarizə aparmaq lazımdır”.

Deputatın qənaətinə görə, Zəfər paradı təkcə Vətən müharibəsində qazanılmış qələbəmizin deyil, həm də xalqımızın iradəsinin, qürurunun, birliyinin tərənnümü oldu. Paradda Azərbaycan əsgərləri ilə yanaşı, türk əsgərlərinin də iştirak etməsi iki ölkə arasında möhkəm birliyin olmasının göstəricisidir.

E.Mirbəşiroğlu nəzərə çatdırır ki, Azərbaycan və Türkiyə Prezidentləri paradı birgə qəbul edərək növbəti dəfə misli görünməmiş qardaşlıq, birlik nümunəsini dünyaya nümayiş etdirdilər. Vətən müharibəsində şanlı qələbəmizin rəmzi olan Zəfər paradı bütün türk dünyasının tarixinin mühüm bir səhifəsinə çevrildi. Nəzərə almaq lazımdır ki, parad həm də dövlət diplomatiyasının bir formasıdır. Belə ki, bu paradda Azərbaycan xalqı təcavüzkar Ermənistana və onun havadarlarına mesaj göndərərək, Azərbaycan xalqına qarşı təxribatlardan, ərazilərinə qarşı təcavüzdən, iddialardan çəkinməyə çağırdı. Bunun əksi olacağı təqdirdə düşmənin aqibətinin necə olacağı haqqında artıq dünyada aydın təsəvvürlər yarandı.

E.Mirbəşiroğlu əlavə edir ki, Azərbaycan Prezidentinin müdrik baxışlarına, unikal diplomatik gedişlərinə, sarılmaz iradəsinə yaxından xalq dəstəyi bizə tarixi qələbə qazandırdı. Müxtəlif istiqamətlərdə ölkə rəhbəri tərəfindən görülən işləri bu və ya digər dərəcədə bizi torpaqlarımızın işğaldan azad olunacağı günə yaxınlaşdırırdı. Münaqişənin dinc yolla tənzimlənməsi istiqamətində addımlar atmağa hazır olduğunu hər zaman nümayiş etdirməklə, Azərbaycan dövləti, xalqı humanizmə, sülhə nə dərəcədə həssas yanaşdığını dünyaya nümayiş etdirdi. Təcavüzkar Ermənistan və havadarları Azərbaycanın belə davranışlarını düzgün qiymətləndirə bilmədilər, özlərini tam cəzasızlıq şəraitində hiss etdilər. Buna görə də düşmənin təxribatları daha da intensivləşdi. Belə olan təqdirdə isə düşmənə layiqli cavabını verməkdən, təcavüzkarı sərt cəzalandırmaqdan başqa yol qalmadı. Azərbaycan Ordusu Vətən müharibəsinin elə ilk günlərində təcavüzkar Ermənistan ordusunu əhəmiyyətli dərəcədə sarsıtdı. Sonradan Paşinyan etiraf etdi ki, müharibəni elə ilk günlərdən dayandırmaq lazım idi. Ermənistan ordusu haqqındakı mif bir anın içində dağıldı. Ermənistan ordusu dünya ictimaiyyətinin yaddaşında zəif, fərari bir ordu kimi qaldı. Azərbaycan Ordusunun apardığı ədalətli müharibə isə dünyanın müxtəlif ölkələrinin hərbi məktəblərində fəal şəkildə öyrənilməyə başlandı: “Vətən müharibəsi haqqında tarixi yaddaşın yaradılması və möhkəmləndirilməsi istiqamətində həm Zəfər paradının, həm də Hərbi Qənimətlər Parkının çox təsirli rolu oldu. Artıq Azərbaycan xalqının bir Zəfər tarixi var. Bu tarix daim xalqımızı uca və yenilməz edəcək”.

## Paradın iştirakçıları bizə zəfər qazandıran qəhrəmanlarımız idi

Zəfər paradını Azərbaycanın hərb tarixindəki ən önəmli tədbirlərdən biri kimi dəyərləndirən hərbi ekspert Şair Ramaldanov bildirir ki, digər paradlardan fərqli olaraq bu paradın iştirakçıları bizə zəfər qazandıran, işğalçı qüvvələri darmadağın edən, ölkənin ərazi bütövlüyünü bərpa edən qəhrəman əsgərlərimiz, hərbi heyətimiz idi. Zəfərin gercəkləşməsində həmin paradda nümayiş olunan müasir texnika və silah-sursat da mühüm rol oynadı. Bu möhtəşəm tədbir Azərbaycan Silahlı Qüvvələrinin nəyə qadir olmasının göstəricisi, ölkəmizin hərbi qüdrətinin, “dəmir yumruğ”un gücünün nümayişi idi: “Hər kəs “dəmir yumruğ”un gücünü düşmən tərəfinin dağıdılmış texnikalarının, onların nömrələrinin nümayişində də gördü. Azərbaycan xalqı 30 ilə yaxın idi ki, bu paradı gözləyirdi. 30 ilə yaxın idi ki, bu paradın olması üçün hazırlıqlar aparılırdı. Zəfər paradı bir daha göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır, onun ordusu qüdrətli ordudur, əsgəri qəhrəman əsgərdir, Azərbaycanın Ali Baş Komandanı Müzəffər Ali Baş Komandandır. Düşünürəm ki, bu parad Azərbaycan Ordusunun bundan sonrakı inkişafını, gücünü, qüdrətini nümayiş etdirən bir təntənəli tədbir oldu. Biz bütün dünyaya sübut edə bildik ki, haqq öz yerini gec-tez tapır, Azərbaycan xalqı hər bir zaman öz haqqını tələb etməyə hazırdır və bunu gerçəkləşdirməyə qadirdir. Biz Azərbaycan oğullarının bu torpaq üçün canından keçməyə hazır, qan tökməyə qadir olduğunu, hər bir əsgərin bir qəhrəmanlıq dastanı yaratdığını gördük”.

## Müharibə planı həmişə Ali Baş Komandanın masası üzərində idi

Ş.Ramaldanov hesab edir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ötən dövr ərzində Azərbaycan Ordusunu məhz bu qələbəyə hazırlayıb, Azərbaycan Silahlı Qüvvələrini bunun üçün inkişaf etdirirdi. Çünki Prezident İlham Əliyev bilirdi ki, Azərbaycan gec-tez torpaqlarını hərb yolu ilə azad etməyə məcbur olacaq. Prezident bunu nəzərə alaraq Azərbaycan Ordusunu müasir texnika və silah-sursatla təchiz edərək ona öz döyüş potensialını yüksəltmək üçün şərait yaratdı.

Müharibə planının həmişə Ali Baş Komandanın masası üzərində olduğunu deyən Ş.Ramaldanovun fikrincə, qazanılmış bu qələbə gənc nəslin formalaşmasında özünəməxsus yer tutacaq. Hərbi Qənimətlər Parkının yaradılması isə gənclərdəki vətənpərvərlik ruhunu daha da gücləndirəcək: “Hərbi Qənimətlər Parkına gələn hər bir gənc oranı yüksək əhvali-ruhiyyə ilə tərk edir. Gənclər buradan çıxanda onlardakı vətənpərvərlik hissləri daha da güclənir. Hər bir gənc Azərbaycan xalqının çox qürurlu bir nümayəndəsi kimi çıxır. Bütün bunları parkı ziyarət edən gənclərin üzünə baxanda da hiss edirsən”.

Azərbaycan Azadlıq meydanında dəfələrlə paradlar keçirib. Amma bu paradların hər birində ölkəmiz özünün müdafiə gücünü, ötən illər ərzində ordu quruculuğu istiqamətində gördüyü işləri, uğurla həyata keçirdiyi hərbi modernləşməni nümayiş etdirirdi. Azərbaycan xalqının tarixinin ən şanlı səhifələrindən birini yaradan Zəfər paradı isə hərbi qüdrətimizi nümayiş etdirməklə yanaşı, Azərbaycanın işğalçılar üzərində qəhrəmanlıq sayəsində qazandığı qələbəsini dünyaya bəyan etdi. Azərbaycan xalqının böyük həsrətlə gözlədiyi Zəfər paradı illərlə həll edilməyən münaqişənin aradan qaldırılmasının nümayişi, Vətən müharibəsindəki möhtəşəm qələbəmizin nəticəsi idi.

***İlhamə İSABALAYEVA, “Azərbaycan”***

# Paradların zirvəsi










*“Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik”.*

Zaman 10 dekabr 2020-ci ildə həmin tarixi günü yetişdirdi...

Şanlı Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin ötən il Azadlıq meydanında keçirilən Zəfər paradında bəyan etdiyi kimi, hər birimiz bu möhtəşəm anlara şahidlik etdik.

## Gün o gün idi...

2020-ci il Azərbaycan xalqının şanlı qələbəyə imza atdığı unudulmaz tarix kimi salnamələrə qızıl hərflərlə həkk oldu. Ötən ilin 27 sentyabrında başlayan və qürurlu Zəfərlə sonlanan 44 günlük Vətən müharibəsi ərəfəsində çox fəxarətli, möhtəşəm günlər yaşadıq, 30 ildir işğal altında qalan dədəbaba yurdlarımızın azadlıq sevinci ilə coşduq. Şanlı 44 günün təntənəli qələbə zirvəsi isə 2020-ci il 10 dekabrda keçirilən Zəfər paradı oldu.

Azadlıq meydanında baş tutan bu möhtəşəm paradda Azərbaycan xalqı şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında qürurla addımlayan Silahlı Qüvvələrimizin şəxsi heyətini “Azərbaycan fanfarası”nın qələbə sədaları altında fəxrlə seyr etdi. O gün böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqları Azadlıq meydanında vüqarla dalğalandırıldı.

Əslində, xalqımız bu şanlı günlərin şahidi olacağının müjdəsini hələ 2 il əvvəl Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevdən almışdı.

2018-ci il iyunun 26-da Ali Baş Komandan Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paraddakı nitqini bu fikirlərlə yekunlaşdırmışdı: “2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək”.

İlham Əliyev qətiyyətlə onu da söyləyirdi ki, döyüşdə olan və hərbçilərimizi daim qabağa aparan bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib: “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək”.

Çox qısa zamandan sonra, gün o böyük gün oldu və biz Azərbaycanın müstəqillik tarixindəki ilk Zəfər paradında işğaldan azad edilən yurdlarımızda dalğalandırılan Zəfər bayraqlarını fəxrlə seyr etdik. Uzun zamandır həsrətində olduğumuz qələbə şadyanalığını yaşadıq. Haqq savaşımızın qalibiyyətinə həsr olunan bu paradda bütün dünya bir daha Azərbaycan dövlətinin, ona başçılıq edən qətiyyətli liderin, rəşadətli Azərbaycan Ordusunun gücünü, qüvvətini gördü.

Azərbaycanın qazandığı bu böyük uğur isə ötən illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu quruculuğu strategiyasının, milli birliyi və həmrəyliyi dəstəkləyən uğurlu siyasətinin məntiqi nəticəsi idi.

Məhz Müzəffər Ali Baş Komandanın qətiyyətli və uzaqgörən siyasəti, ordumuzdakı ruh yüksəkliyi, torpaqlarımızın bir qarışını belə düşmənə verməyəcək əzmində olması cəbhədəki uğurlarımızı şərtləndirən başlıca amillər idi.

## Rəşadətli Azərbaycan Ordusu 44 gündə möhtəşəm tarix yazdı

2020-ci ilin 27 sentyabrında Ermənistanın Azərbaycan sərhədlərində yenidən təxribat törətməsi və mülki əhalini hədəfə almağa başlaması səbrimizi daşırmaya bilməzdi. Artıq faşist xislətli düşmənin başına sonuncu, öldürücü zərbəni vurmağın vaxtı yetişmişdi. Buna görə də Ali Baş Komandanın Vətən uğrunda “İrəli” əmri ilə on minlərlə gəncimiz öz ata-baba yurdlarını işğaldan azad etmək üçün irəli atıldılar. İgid oğullarımız silaha sarılaraq mənfur düşmənə həddini bildirməyə tələsdilər.

Rəşadətli Azərbaycan Ordusu şanlı 44 günün hər günündə möhtəşəm tarix yazdı. Vətən uğrunda savaşan qəhrəman oğullarımız daim irəli şığıdı, düşmənin murdar ayağını qarış-qarış torpağımızdan qoparıb ataraq xalqımıza hər gün zəfər müjdəsi verdi. 30 illik həsrətdən sonra Azərbaycanın üçrəngli müqəddəs bayrağı Vətən torpağında, uca zirvələrdə dalğalanmağa başladı...

Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Suqovuşan, Hadrut qəsəbələri, Xocalının və Kəlbəcərin bir hissəsi, Murovdağ silsiləsi, Laçının cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında bir-bir düşməndən azad edildi. Noyabrın 8-də Qarabağın ürəyi Şuşa şəhərinin azad edilməsi və orada Azərbaycan bayrağının qaldırılması isə Vətən müharibəsinə Zəfər yekunu vurdu. Mənfur düşmən qəhrəman Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyərək diz çökdü və noyabrın 10-da təslimçilik bəyanatını imzalamağa məcbur oldu.

## Qardaşlığın təntənəsi

Tarixi qələbədən bir ay sonra, dekabrın 10-da Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı parlaq qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradı dünyaya səs saldı. Xalqımız bu qələbəni yaşadan qəhrəman oğullarına yaxından tamaşa etdi, onlarla fəxr etdi. Bir daha Vətən uğrunda canlarından keçən şəhidlərimizə minnətdarlıq duydu, onların ruhuna dualar oxudu.

Zəfər paradında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, fəxri qonaq qismində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etdilər.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin bir qisminin nümayişi oldu.

Belə qürurlu günümüzdə Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə addımlaması isə bir daha düşmənə və bütün beynəlxalq aləmə Azərbaycanın tək olmadığının ciddi mesajını verdi.

## “Dəmir yumruq” düşmənin belini qırdı, düşmənin başını əzdi...”

O gün Azadlıq meydanına, həm də 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Şanlı Ordumuz tərəfindən darmadağın edilən düşmən texnikalarını seyr etdik və bu bir daha Azərbaycanın “dəmir yumruğ”unun qarşısında heç bir gücün, silahın, sursatın duruş gətirə bilməyəcəyinin əminliyini yaşadıq.

Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan “Qarabağ Azərbaycandır!” şüarı ilə bir daha bəyan edildi.

Prezident İlham Əliyevin Zəfər paradında söylədiyi kimi: “...Bu “dəmir yumruq” düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın “dəmir yumruğ”u onların belini qıracaq”.

Bəli, ötən ilin 10 dekabrında düşmən cəmi 44 gün ərzində qarşısında diz çökdüyü, həmləleri qarşısında boyun əydiyi qalib Azərbaycanın şanlı Ordusunun qüdrətini bir daha duydu, “dəmir yumruğ”un zərbəsini bir daha başında hiss etdi...

Xalq-dövlət-ordu birliyi işğalçı üzərində əbədi qələbənin möhürünü vurdu, bu birlik Vətən müharibəsini qalibiyyət zirvəsinə daşıdı, haqq və ədalət zəfər çaldı.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

# Azərbaycana qələbə yaraşır

“Qarabağ zəfəri xalqımızın şanlı tarixidir”. Bunu Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib. Onun sözlərinə görə, 2020-ci il dekabrın 10-da keçirilmiş Zəfər paradı Azərbaycan xalqının həyatında mühüm rol oynadı: “Hesab edirəm ki, həmin tarixi paradla biz şəhidlərimizin ruhuna böyük sayğını, hörməti nümayiş etdirmiş olduq. Bu isə müqəddəs bir işdir. Zəfər bayrağımızın dalğalanması Azərbaycan xalqının illərdir çəkdiyi acı və zülm üzərindəki qələbəsinin göstəricisidir.



Azərbaycan hər gün inkişaf edir. Azərbaycan bundan sonra daha sürətlə inkişaf edəcək. Bu sözü cənab Prezident İlham Əliyev də öz çıxışı zamanı deyib. Azərbaycan bütün dünyaya özünün müstəqil, nüfuzlu, iradəli və qətiyyətli bir dövlət olduğunu sübut etdi. Azərbaycan Ordusu bütün dünyaya gücünü göstərdi. Azərbaycan xalqı həmrəyliyini, “dəmir yumruq” kimi cənab Prezidentin ətrafında birləşə bildiklərini təsdiqlədi. Dövlət rəbərinin apardığı uğurlu siyasət status-kvoya son qoydu. Regionda bir sıra dövlətlərin silah ticarəti üçün nəzərdə tutduqları Qarabağ münaqişəsini ortadan götürdü. Bölgədə sülh, barış və sabitliyin təmin olunması üçün həm diplomatik baxımdan, həm hərbi baxımdan öz gücünü və müdrik siyasətini göstərməyə müvəffəq oldu. Bu, danılmaz faktdır”.

Partiya sədri deyib ki, Azərbaycan Qarabağ məsələsini həll etməklə Zəngəzura da yol açdı. Danışıqlar masasında indi Zəngəzur dəhlizi var. Bu fakt özü-özlüyündə Azərbaycanın diplomatiyadakı böyük zəfəridir: “Hesab edirəm ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə atılan hər bir addım Azərbaycanı yalnız və yalnız irəliyə aparacaq. Azərbaycan daim dinamik inkişaf edəcək. Düşünürəm ki, Azərbaycanın tarixində hələ belə qələbələr çox olacaq. Çünki Azərbaycana zəfər, Azərbaycan xalqına qələbə yaraşır!”

Partiya sədri eyni zamanda Azərbaycan Ordusunun əldə etdiyi hərbi qənimətlərin də nümayiş olunmasının müzəffər ordumuzun uğurunun göstəricisi olduğunu qeyd edib. Onun fikrincə, Hərbi Qənimətlər Parkında Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə sədlərinin nümayiş etdirilməsi məğlub ölkənin imzaladığı kapitulyasiya aktının nəticəsidir. Qarabağ Zəfəri, Müzəffər Azərbaycan Ordusunun əldə etdiyi qələbə və hərbi qənimətlər bir daha Prezident İlham Əliyevin “dəmir yumruğ”unun bəhrəsidir.

Qarabağ Zəfərinin qazanılmasında Azərbaycan və Türkiyə qardaşlığının, dostluğunun sarsılmaz olduğunu vurğulayan Əsli Kazımova bu qardaşlığın daimi olacağına heç bir şübhə etmir: “Azərbaycan və Türkiyə əsgərlərinin paradda bərabər addımlaması nəinki işğalçı Ermənistana, illərdir ikili standartlar tətbiq edən beynəlxalq təşkilatlara və dövlətlərə ciddi bir mesaj idi. Bu, Azərbaycan üçün çox önəmlidir”.

***Ülkər XASPOLADOVA, “Azərbaycan”***

# İnsan hüquqlarını önə çəkən inkişaf modelinin müəllifi

Tarixboyu lider amili hər bir dövlətin, xalqın inkişafında müstəsna rol oynayaraq inkişaf potensialını hərəkətə gətirmiş, bunun səmərəli realizə edilməsinə zəruri əsaslar yaratmışdır. Milli inkişaf yolunun banisinə çevrilən belə xarizmatik liderlər həm də müsbət planda siyasi varislik ənənələri formalaşdıraraq müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin etmişlər.

Tarixin axarını dəyişən böyük simaların ideya və prinsipləri, idarəçilik ənənələri, adətən, zaman və məkanın fövqündə olur. Bu mənada xalqımızın ötən əsrdə yetirdiyi ən böyük şəxsiyyət olan Heydər Əliyev dühasına layiq olduğu qiyməti vermək, onun vətən və xalq naminə göstərdiyi misilsiz xidmətləri obyektiv dəyərləndirmək böyük məsuliyyət tələb edir. Yüksək ehtiramla qələmə alınan ən xoş xatirələr, siyasi, iqtisadi, fəlsəfi fikir və mülahizələr Ümummilli Liderin insan, vətəndaş və lider kimi nəhəngliyinin miqyası barədə dolğun təsəvvür belə yarada bilmir.

İndi hər kəs etiraf edir ki, Ulu Öndər Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda respublika rəhbəri seçilməsi iqtisadi və mədəni yüksəlişin əsasını qoymuş, xalqın milli mənlik şüurunun, özünüdərk hissinin güclənməsinə təkan vermişdir. Müdrik xalqımız öz liderinin rəhbərliyi altında yüksək iradə nümayiş etdirməklə, milli yaddaşını, zəngin mənəvi-əxlaqi dəyərlərini, tarixi dövlətçilik ənənələrini qorumuş, dövlət müstəqilliyi üçün siyasi-hüquqi və iqtisadi zəmin formalaşdırmışdır.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu il tarixdə keçirilmiş plenumunda Heydər Əliyevin rəhbər vəzifəyə namizədliyinin yekdilliklə dəstəklənməsi onun kamil şəxsiyyəti, yüksək idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Qeyri-adi, fitri istedadı, təşkilatçılıq və idarəçilik məharəti, ən əsası vətənpərvərliyi, milli ideallara bağlılığı ilə ilk gündən Azərbaycanın üzləşdiyi sosial-iqtisadi problemləri aradan qaldırmaq, qanunçuluğu və hüquq qaydalarını gücləndirmək, ciddi sosial bəlaya çevrilmiş korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə tədbirlərini genişləndirmək istiqamətində əzmkar fəaliyyətə başlayan Heydər Əliyev mütərəqqi idarəçilik ənənələrinin əsasını qoymuş, cəmiyyətin normal inkişaf ahəngini təmin etmişdir.

Respublikaya rəhbərliyinin ilkin dövrlərindən başlayaraq Heydər Əliyev cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində prinsipial addımlar atmış, polis, prokurorluq və məhkəmə orqanlarında sağlam mühitin formalaşmasına çalışmış, xüsusən də iqtisadi zəmində saxtakarlıqlara - dövlət əmlakının mənimsənilməsi hallarına qarşı səmərəli mübarizə mexanizmləri tətbiq etmişdir. 1970-ci illərin əvvəllərindən başlayaraq rüşvətxorluğa, əliəyriliyə və mənəviyyata zidd digər təzahürlərə qarşı amansız mübarizə aparmış, belə hallara yol verənlərin məsuliyyətə cəlb olunmasını tələb etmişdir.

Böyük siyasət ustadının yaratdığı spesifik idarəçilik modelinin üstün cəhətlərindən biri də kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması - daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual və yüksək bilik səviyyəsi ilə fərqlənən gənclərə üstünlük verilməsidir. Ötən əsrin 70-ci illərinin əvvəllərindən etibarən Heydər Əliyevin hüquqşünas kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürməsi bunu bir daha təsdiqləyir. Geniş imtiyazlara, səlahiyyətlərə malik vəzifəli şəxslərin övladlarının hüquq fakültəsinə daxil olması məsələsində şəffaflığın yaradılmasına xüsusi diqqət yetirən Ümummilli Lider neqativ tendensiyalara qarşı amansız mübarizə aparmış, zəhmətkeş övladlarının ozamankı Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmasına imkan yaradan münbit mühitin formalaşdırılmasına nail olmuşdur.

10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərən Heydər Əliyev yüksəkixtisaslı, vicdanlı və peşəkar hüquqşünas kadrların hazırlanması, hüquq-mühafizə sisteminin sağlamlaşdırılması məsələsinə də qayğı ilə yanaşmışdır. Eyni zamanda Heydər Əliyev Azərbaycanda bir sıra yeni ixtisaslar üzrə - informasiya texnologiyaları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, aviasiya və digər mütəxəssis hazırlayan ali məktəblərin olmadığını nəzərə almaqla, minlərlə azərbaycanlı gəncin Moskva, Kiyev, Minsk və başqa şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərilməsini təmin etmişdir. Böyük strateq sonralar qeyd edirdi ki, 1970-1980-ci illərdə ideologiyadan, ictimai-siyasi, iqtisadi sistemdən asılı olmayaraq Azərbaycan xalqının böyük bir nəsli təhsil almış, böyümüş, yüksək səviyyəyə çatmış, böyük elmi biliklərə sahib olmuşdur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin varlığını təsdiqləyən rəmz və atributlara münasibəti də hər zaman həssas olmuşdur. Rus dilinin dövlət dili olmasına rəğmən, Ümummilli Lider həmin dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərdən də qətiyyətlə istəyirdi. 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiya layihəsi qəbul edilərkən, Ulu Öndərin Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbitlənməsi və qorunub saxlanılması sahəsində nümayiş etdirdiyi rəşadəti də bu məqamda xüsusi xatırlatmaq lazımdır. Həmin dövrdə Konstitusiyada Azərbaycan dilinin rəsmi dövlət dili kimi qəbul edilməsi də məhz Ümummilli Liderin əzmkarlığı və cəsarəti sayəsində mümkün olmuşdur.

1981-ci ilin dekabr ayında "Literaternaya qazeta"ya verdiyi məşhur "Qoy, ədalət zəfər çalsın!" sərlövhəli müsahibədə respublika həyatı ilə bağlı ən müxtəlif məsələlərə toxunan Ümummilli Lider hüquq-mühafizə orqanlarındakı nöqsanlar, ən başlıcası, vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində mövcud olan problemlərə toxunmuş, mövcud problemlərin həlli yollarını göstərmişdir. Ulu Öndər Heydər Əliyev çox sonralar həmin müsahibəsini xatırladaraq demişdir: *"Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmağıma baxmayaraq, mən həmin müsahibədə sovet hakimiyyətinin, cəmiyyətinin işində olan mənfi halların hamısını açıq göstərmişdim. Xatirimdədir, o vaxt Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, həm də Siyasi Büronun üzvü idi. O, bir neçə gündən sonra mənə telefon etdi. Dedi ki, sənin bu müsahibən böyük bir sensasiya yaradıbdır. Soruşdum ki, nə mənada? Cavab verdi ki, müsbət də var, mənfi də var. Soruşuram ki, nəyi müsbətdir, nəyi mənfidir? Deyir, müsbət odur ki, insanlar bizim cəmiyyətdəki bu yaraları görürlər və sevinirlər ki, kimsə cəsarət edib bunları açıq deyir. Özü də bunu aşağıda yox, ən yüksək vəzifədə çalışan bir adam deyir. Amma bunun əleyhinə olanlar da var. Soruşuram ki, niyə? Bildirir ki, çünki onlar bunun açılmağını istəmirlər. O vaxt bir çox belə yazılar olub".*

Ümummilli Lider 1982-ci ildən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildikdən sonra da ölkəmizin inkişafına xüsusi diqqət yetirmiş, eyni zamanda keçmiş ittifaq miqyasında müxtəlif layihələrin, o cümlədən ittifaq üçün strateji əhəmiyyətli Baykal-Amur Magistralının (BAM) tikintisinə inamla rəhbərlik etmişdi. Dünyanın icra olunmuş ən böyük layihələrindən sayılan, tikintisi barədə 1974-cü ilin 8 iyulunda qərar qəbul olunan Baykal-Amur dəmir yolu magistralının (BAM) ərsəyə gəlməsində böyük strateq Heydər Əliyevin xidmətləri xüsusi vurğulanmalıdır. Həmin dövrdə "Komsomolets Azerbaydjana" qəzeti yazırdı ki, inşası yarımçıq qalmaq təhlükəsi ilə üzləşən BAM-ın tikintisi məhz Heydər Əliyevin sayəsində keçilməz tayqa meşələrində inamla davam etdirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin tarixi missiyası həm də o dövrdə xalqın daxilində olan milli ruhu və idealları keçmiş rejimin hücumlarından qoruyaraq xalqın milli yüksəlişini təmin etmək, hüquqlarını qorumaq idi. Hakim ideologiya ilə uzlaşmayan "Gülüstan" poemasının müəllifi Bəxtiyar Vahabzadəni həbs olunmaq təhlükəsindən qoruyan da, Bakıda Nəriman Nərimanovun abidəsini ucaltmaq üçün iki ilə yaxın mübarizə aparan da, dahi dramaturq Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək üçün ən sərt maneələrə mərdliklə sinə gərən də, nəhayət, 1990-cı ilin 21 yanvarında - Kremlin bir addımlığında xalqımıza qarşı qətliam törətmiş mənfur imperiyanı ifşa edən də məhz Heydər Əliyev idi.

Əsl lider bütünlükdə mühitdən asılı olan adamlardan onunla seçilir ki, ətrafda baş verən hadisə və proseslərə münasibətdə passiv müşahidəçi mövqeyindən çıxış edərək biganəlik, laqeydlik göstərmir. Ulu Öndər Heydər Əliyevin müstəqilliyin ilk illərində milli dövlətçiliyi qorumaq üçün nümayiş etdirdiyi qətiyyət və prinsipiallıq bu mənada onun həm də yüksək liderlik əzmini nümayiş etdirir. Heydər Əliyev fenomeninin siyasi iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti 1993-cü ilin iyunundan etibarən Azərbaycanı xaos və anarxiya mühitindən, vətəndaş müharibəsi təhlükəsindən xilas edib, stabil inkişaf yoluna çıxarmışdır.

Bəşər tarixi təsdiq edir ki, yalnız ədalət, müdriklik, humanizm kimi ali dəyərləri şəxsiyyətində bir araya gətirməklə kamillik zirvəsinə yüksəlmiş liderlər qanuna söykənən cəmiyyət yaratmaq idealı ilə yaşamış və fəaliyyət göstərmişlər. Ulu Öndər Heydər Əliyevin bütöv şəxsiyyət kimi ən ali və nəcib mənəvi keyfiyyətlərindən biri də məhz onun idarəçilikdə daim sosial ədalət, düzgünlük və humanizm prinsiplərinə istinad etməsi olmuşdur. Ümummilli Liderin *"Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında"* 9 avqust 1994-cü il tarixli fərmanı cinayətkarlıqla mübarizə tədbirlərinin daha səmərəli təşkilinin, bu məqsədlə yeni strukturların yaradılmasının, ciddi sosial bəlaya çevrilmiş rüşvətxorluq və korrupsiyanın qarşısının alınmasının konkret mexanizmlərini müəyyən edən, ictimai-siyasi sabitliyi daha da möhkəmləndirən ilk sanballı sənədə çevrilmişdir.

1995-ci ildə Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasının müddəalarının böyük əksəriyyətinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması Ulu Öndərin haqqa, ədalətə tapınan lider olduğunu bir daha təsdiqləyir. Konstitusiyada hakimiyyət bölgüsü prinsipi dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. BMT-nin 10 dekabr 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları Konstitusiyada tam əhatəli şəkildə təsbit olunmuşdur.

Konstitusiyanın qəbulu ilə paralel şəkildə Azərbaycanda demokratik seçki ənənələrinin formalaşdırılması istiqamətində praktik addımlar atılmışdır: 1995-ci ilin 12 noyabrında azad, ədalətli və şəffaf şəraitdə keçirilən seçkilərdə Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırılmış, ölkədə demokratik parlamentarizm təcrübəsinin əsası qoyulmuşdur. Yeni qanunların qəbulu hesabına müstəqil Azərbaycanda məhkəmə-hüquq islahatları inamla davam etdirilmiş, respublikamız insan hüquq və azadlıqları sahəsində bir sıra konvensiyalara, sazişlərə qoşulmuşdur. Demokratik təsisatların fəaliyyətinin geniş müstəvidə təmin olunması məqsədilə Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq xətti yeni mərhələdə davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" və 1998-ci il 18 iyun tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" fərmanları insan hüquq və azadlıqlarının təminatı sahəsində yeni vəzifələr müəyyənləşdirdi.

Ümummilli Lider Heydər Əliyev sonrakı mərhələdə də ölkə həyatının bütün sahələrində çevik və işlək mexanizmlər üzərində çoxşaxəli islahatları təmin etmişdir. Hüquqa və ədalətə söykənən mülki cəmiyyətin formalaşdırılması üçün, ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmiş, ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların qayəsində insana qayğı, insan ləyaqətinə, şəxsiyyətinə hörmət prinsipi dayanmışdır.

2003-cü ilin 15 oktyabr seçkilərində xalqın böyük etimadını qazanaraq Azərbaycan Prezidenti seçilmiş cənab İlham Əliyev də Ulu Öndərin möhkəm təməl üzərində əsasını qoyduğu məhkəmə-hüquq islahatlarını yeni dövrün tələbləri səviyyəsində davam etdirmişdir. Cənab İlham Əliyevin təşəbbüsü ilə respublikamızda həyata keçirilən hüquq islahatları insanpərvərlik, humanizm, şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət kimi ali dəyərlərə söykənir.

İdarəçiliyinə yeni ruh və müasirlik çalarları gətirmiş cənab İlham Əliyev hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin başlıca təminatı hesab etmiş, eyni zamanda mövcud nöqsanlar, çatışmazlıqlar ətrafında obyektiv müzakirələrin açılması yolu ilə onların tez zamanda aradan qaldırılmasına çalışmışdır. Hökumətin 2003-cü il 17 noyabr tarixdə keçirilmiş ilk iclasındakı çıxışında "Biz xalqın xidmətçisiyik. Hər bir məmurun vəzifəsi xalq üçün çalışmaq, ona göstərilmiş etimadı doğrultmaqdır", - deyən dövlət başçısı ötən 18 ildə məmurlara etimad meyarını məhz onların fəaliyyətinə nəzərən müəyyənləşdirmiş, eləcə də vətəndaşların görülmüş işlər, qarşıda duran məqsədlər, həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır.

"Mən hər bir azərbaycanlının Prezidenti olacağam", - deyən cənab İlham Əliyev son 18 illik fəaliyyətində vədinə sadiqliyini dəfələrlə əməli işi ilə sübuta yetirmişdir. Xalqın firavanlığına, yüksək sosial rifahına çalışan dövlət rəhbəri ən çətin və qayğılı günlərdə vətəndaşların yanında olmuş, onlara diqqət və qayğısını, dəstəyini əsirgəməmişdir. Cənab Prezidentin xaraktercə sadə və səmimi, praktik siyasətçi olması onun sıravi vətəndaşlarla təmaslarında bir daha üzə çıxmışdır. Dövlət başçısı bütün müdrik rəhbərlərə xas qabiliyyətlə hər kəsə diqqət göstərilməsinə, dövlət məmurları ilə sadə vətəndaşlar arasındakı psixoloji səddin aradan götürülməsinə nail olmuşdur. Bütün bunlar dövlət rəhbərinə xalqın böyük rəğbətini, inamını qazandırmış, böyük layihələri qısa zamanda gerçəkləşdirmək imkanı yaratmışdır. Ulu Öndər Heydər Əliyevin həyata keçməmiş arzularını praktik şəkildə gerçəkləşdirməklə xalqa rəhbərlik missiyasının öhdəsindən layiqincə gəlməkdədir.

Siyasi liderliyi şərtləndirən mühüm meyarlardan biri də çətin, ekstremal situasiyalara hazır olmaq və yaranmış çətinliklərdən optimal çıxış yolları tapmaqdır. Əsl siyasi lider dövlət və cəmiyyət həyatı üçün istənilən təhlükəli meyillərə qarşı qətiyyətli mövqe tutur, mövcud şəraitə adekvat tədbirlər həyata keçirməklə yanaşı, ən çətin anlarda xalqının önündə olur. Hələ 2003-cü ilin prezident, 2005-ci ilin parlament seçkilərindən sonra dövlət başçısının xalqın dəstəyi ilə nümayiş etdirdiyi yüksək siyasi sayıqlıq, iradə və qətiyyət Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, cəmiyyətdə bölücülük və qarşıdurma yaratmaq istəyən qüvvələrin çirkin niyyətlərini puça çıxarmışdır. Cənab İlham Əliyev eynilə Ulu Öndər Heydər Əliyev kimi ən çətin, ekstremal situasiyalarda yüksək iradə və prinsipiallıq nümayiş etdirərək dövlətçiliyə yönəlmiş qəsdləri qətiyyətlə zərərsizləşdirsə də, liberal dəyərlərə, demokratik prinsiplərə, insan hüquq və azadlıqlarına sadiqliyini hər zaman qoruyub saxlamışdır.

Ümumilikdə, respublikamızın son 18 ildə siyasi, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə əldə etdiyi yüksək nəticələrin möhkəm təməl üzərində formalaşmış ictimai-siyasi sabitlik amili ilə şərtləndiyini, həmrəyliyə və vətəndaş sülhünə əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Bu gün respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, milli barışıq mühiti demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə sürətli iqtisadi tərəqqinin başlıca təminatlarından biridir.

Dövlət başçısı İlham Əliyevin ötən illərdə ölkədə siyasi barışığın, vətəndaş həmrəyliyinin və sülhünün təmin olunması, əks-qütblü qüvvələr arasında etimad mühitinin formalaşdırılması istiqamətində atdığı addımlar onun ədalətli rəhbər obrazını şərtləndirən amillər sırasında xüsusi vurğulana bilər. Ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın bütün vətəndaşlarının iştirakının təmin edilməsi, müxalifətin sağlam, konstruktiv dialoqa dəvət olunması, əldə edilən iqtisadi nailiyyətlərdən hamının öz bacarıq, zəhmət və əqli imkanlarına görə bəhrələnməsi Prezident İlham Əliyevin milli birliyin möhkəmləndirilməsi istiqamətində atdığı addımlardandır. Buna əyani misal kimi, cənab İlham Əliyevin ötən 18 ildə 36 əfv fərmanı imzalamasını və 7000-dən məhkumu əfv etməsini göstərmək olar. Bu fərmanların hətta ağır dövləti cinayətlərdə iştirak etmiş bir sıra məhkumlara şamil edilməsi Azərbaycanda kifayət qədər oturuşmuş və demokratik siyasi sistemin mövcudluğunu təsdiqləyir. Bu məqam cənab İlham Əliyevin idarəçilik fəlsəfəsində humanizm və insanpərvərlik ideyalarının parlaq bir xətt təşkil etdiyini göstərir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 18 ildə apardığı kadr dəyişiklikləri, məmurlara, dövlət rəsmilərinə fəaliyyətlərini məhz vətəndaşların mənafelərinin müdafiəsi, onların problemlərinin həlli istiqamətində qurmaları barədə qəti tapşırıqlar verməsi ictimai fikirdə demokratik inkişafa xidmət edən islahatların uğurla gedəcəyinə böyük inam yaratmışdır. Dövlət başçısı idarəçiliyin təkmilləşdirilməsi prosesini daim diqqət mərkəzində saxlamaqla, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələrək yeni, çevik və işlək strukturların, dövlət komitələrinin, nazirliklərin yaradılmasını vacib sayır. Nazirlər Kabinetinin son 3 ildə yenilənmiş tərkibi və əsaslı kadr əvəzlənmələri fonunda bunu bir daha əminliklə söyləmək mümkündür. Cənab İlham Əliyev, ilk növbədə, vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsi ilə bağlı bu və digər qərarları qəbul etmiş, gəncləri dövlət idarəetməsinə irəli çəkmişdir. İdarəçilik sistemində özünü göstərən cüzi qüsurların belə aradan qaldırılması üçün ardıcıl kadr və struktur islahatları həyata keçirmiş, xalqa layiqli xidmət məramını vəzifədə irəli çəkdiyi kadrlar qarşısında ümdə vəzifə kimi aktuallaşdırmışdır.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, torpaq həsrətinə son qoyaraq 2020-ci ilin sentyabr-noyabr aylarında işğal faktını aradan qaldıran Azərbaycan xalqı möhtəşəm tarixi zəfərindən qürur və fəxarət hissi keçirir. 30 il müddətində davam edən münaqişəyə cəmi 44 gün müddətində son qoymağı bacaran, müzəffər Ordumuzun qazandığı strateji əhəmiyyətli hərbi qələbələrlə təcavüzkar Ermənistanı diz çökdürən, təslimçiliyə məhkum edən Azərbaycan Prezidenti, Ali Baş komandan cənab İlham Əliyev ən yeni tariximizə Zəfər sərkərdəsi kimi möhürünü vurmuşdur.

Azərbaycan 30 illik barışmaz mübarizə mərhələsinin məntiqi yekunu olaraq beynəlxalq hüquq normalarını, BMT qətnamələrinin icrasını məhz döyüş meydanında - "dəmir yumruğu" sayəsində bərpa etmişdir. 2003-cü ildən bu yolu uğurla davam etdirən, Ulu Öndərin siyasətinə sadiq qalan Prezident İlham Əliyev Azərbaycan xalqını illərdir həsrətində olduğu Qələbə sevincinə qovuşdurmuşdur.

Dövlət başçısı İkinci Qarabağ müharibəsinin başlanmasına qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda respublikamızın qətiyyətli mövqeyini təmin etmişdir. Rəsmi Bakının 30 ilə yaxın müddətdə nəticəsiz qalmış danışıqlar prosesində iştirakını şərtləndirən mühüm amillərdən biri də məhz respublikamızın haqlı mövqeyini beynəlxalq miqyasda, əsasən də mötəbər təşkilatlar çərçivəsində sübuta yetirmək üçün vaxt qazanmaq məramı olmuşdur. Başqa sözlə, Ermənistanın destruktiv davranışları səbəbindən danışıqlar prosesinin heç bir real nəticə vermədiyini diqqətə çəkən rəsmi Bakı hərb yolunun qaçılmazlığını beynəlxalq səviyyədə əsaslandırmışdır.

Hərbi əməliyyatları şərtləndirən əsas səbəblərdən biri də Ermənistanın təxribatçı əməllərinin miqyasının 2021-ci ilin iyul-sentyabr aylarında daha da genişləndirilməsi, İrəvanın güc yolu ilə ölkəmizin digər ərazilərini ələ keçirmək niyyətini açıq şəkildə bəyan etməsi olmuşdur. Nəhayət, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri əsasında Azərbaycan Ordusu düşmənin təxribatlarına, ümumilikdə işğalına son qoymaq üçün sentyabrın 27-dən etibarən "dəmir yumruq" əməliyyatı adı altında genişmiqyaslı əks-həmlə əməliyyatlarına başlamışdır.

Hərbi əməliyyatların davam etdiyi günlərdə informasiya savaşının da önündə dayanan Azərbaycan Prezidenti İlham Əliyev yüksək diplomatik məharətlə münaqişənin tarixi, danışıqlar mərhələsinin nəticəsiz qalmasının əsas səbəbləri, Ermənistanın qeyri-konstruktiv davranışlarının, ərazi ilhaqı siyasətinin, ağır müharibə cinayətlərinin region üçün təhdidləri, beynəlxalq təşkilatların qətiyyətsiz davranışları, habelə Azərbaycanın hərbi əməliyyatların dayandırılması ilə bağlı beynəlxalq hüquqa əsaslanan şərtlərini bəyan etmişdir. Hərbi əməliyyatlar dövründə sosial şəbəkələr Azərbaycanda görünməmiş populyarlıq qazanmış, insanlarımız dövlət rəhbərinin rəsmi "Tviter" səhifəsini diqqətdə saxlamış, Azərbaycan Televiziyası ilə yeni qələbə müjdələrini bir-biri ilə paylaşmışlar.

Miskin və çarəsiz vəziyyətə düşən düşmən mülki şəxsləri hədəfə almaqla döyüş meydanındakı uğursuzluqlarını ört-basdır etməyə çalışmışdır. Ermənistanın məqsədi Azərbaycanın dinc əhalisini qorxutmaq olsa da, bunun tamamilə əksi baş vermiş, xalqımız Ali Baş Komandan və ordu ətrafında daha sıx birləşmişdir. "Hərbi hədəfli obyektlərin vurulması" adı ilə döyüş bölgəsindən xeyli uzaq, mülki əhalinin sıx yaşadığı ərazilərin ağır artilleriyadan, uzaqmənzilli raketlərdən atəşə tutularaq dinc insanlara qarşı müharibə cinayətlərinin törədilməsinə görə Ermənistanın hərbi-siyasi rəhbərliyi birbaşa məsuliyyət daşıyır.

Ermənistanın yol verdiyi digər müharibə cinayəti dinc əhaliyə qarşı qadağan olunmuş fosforlu bombalardan, kaset tipli silah-sursatlardan istifadə etməsi olmuşdur. Fosforlu bombadan istifadə olunmasının qadağan edilməsi ilə bağlı müxtəlif beynəlxalq sənədlər mövcuddur. 1968-ci il tarixli Sankt-Peterburq Deklarasiyası, müharibə qurbanlarının qorunması haqqında 1949-cu il Cenevrə Konvensiyaları və əlavə protokollar, "Adi silahların konkret növləri haqqında konvensiyaya" üçüncü protokol, 1980-ci il tarixli "Həddən artıq ziyan vuran hesab edilə bilən və ya qeyri-seçim hərəkətinə malik adi silahların konkret növlərinin tətbiqinin qadağan edilməsi və ya məhdudiyyət qoyulması barədə" Konvensiya, 2008-ci il tarixli "Kaset tipli silah-sursatlar haqqında" Konvensiya buna konkret misallardır. Lakin ermənilər bu sənədlərin tələblərini kobud surətdə pozmuş, bundan əlavə, 1949-cu il 12 avqust tarixli "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyası və 1977-ci il beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına birinci əlavə protokolun, Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın, İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktın, "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırılma haqqında" konvensiyanın, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın normalarına əməl etməmişdir.

44 günlük Vətən müharibəsi dövründə 300-dən çox yaşayış məntəqəsinin, strateji yüksəkliklərin, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərinin, şəhər tipli Suqovuşan, Hadrut qəsəbələrinin, Xocavənd rayonunun bir hissəsinin, Murovdağ dağ silsiləsinin, Laçın və Kəlbəcər rayonlarının bir hissəsinin, nəhayət, noyanrın 8-də qədim Şuşa şəhərinin işğaldan azad olunması Ermənistanın hərbi-siyasi kapitulyasiyasını qaçılmaz prosesə çevirmişdir. Əks-həmlə əməliyyatlarının zaman keçdikcə daha uğurlu nəticələrlə müşayiət olunması, Silahlı Qüvvələrimizin Şuşa şəhərindən cəmi bir gün sonra 70-dən çox yaşayış məntəqəsini işğaldan azad etməsi Ermənistanın hərbi-siyasi rəhbərliyini ağır ruhi sarsıntı və məğlubiyyətə məhkum etmişdir.

Azərbaycan hərb meydanında layiqli zəfər qazanmaqla düşmənə öz şərtlərini diktə etməyə nail olmuş, Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş üçtərəfli 10 noyabr razılaşması ölkəmizin ərazi bütövlüyünün bərpası, təcavüzkar tərəfin "ikinci erməni dövləti qurmaq" iddialarının iflası ilə nəticələnmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın əks-həmlə əməliyyatları münaqişə regionundakı "status-kvo" və təmas xətti anlayışlarını aradan qaldırmışdır.

44 günlük Vətən müharibəsi eyni zamanda Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübuta yetirmişdir. Həmin günlərdə bir daha məlum oldu ki, 30 ilin torpaq həsrəti, əzabları xalqımızı sındırmamış, onun iradəsinə mənfi təsir göstərməmişdir. Ermənilərin təxribatlarına, vandalizminə baxmayaraq, Azərbaycanın Tərtər, Beyləqan, Yevlax, Bərdə, Goranboy, Ağdam, Naftalan və digər rayonlarının, habelə Gəncə şəhərinin sakinləri sonadək yüksək vətənpərvərlik, iradə və əzm nümayiş etdirmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin son bir ildə bütün açıqlama və çıxışlarında, müsahibələrində Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərində törətdiyi müharibə cinayətlərinə, vandalizm aktlarına geniş yer verməsi ölkəmizin informasiya cəbhəsində üstünlüyünü təmin etmiş, aşkar təcavüzkarlıq siyasəti yürütmüş bədxah qonşumuzun beynəlxalq arenada ifşası prosesini sürətləndirmişdir. Diplomatik nümayəndələrin, əcnəbi jurnalistlərin, rəsmi şəxslərin işğaldan azad edilmiş ərazilərə müntəzəm səfərinin təşkili Ermənistanın ağır müharibə cinayətlərinin dünyaya nümayişi, eləcə də İrəvanın beynəlxalq məhkəməyə verilməsinə hüquqi zəmin yaradılması baxımından əhəmiyyətli olmuşdur.

Onu da xüsusi olaraq vurğulamaq istərdik ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi təşəbbüsü ölkədə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun mühüm tərkib hissəsidir. Azərbaycanda məhkumların cəzasının çəkilməmiş hissəsindən azad edilməsi - bağışlanması müsbət ənənəyə, dövlətin vətəndaşlarına mərhəmətli və humanist yanaşmasının əyani təzahürünə çevrilmişdir.

Bütün bunlar göstərir ki, Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, ictimai həyatın bütün sahələrini əhatə edən demokratikləşmə prosesi uğurla davam etdirilir, qanunun aliliyinin təmini, humanist, bəşəri dəyərlərin bərqərar olması üçün böyük işlər görülür. Azərbaycanın Vətən müharibəsindən sonrakı inkişafı, ölkəmizin yüksək dinamizmlə artan sosial-iqtisadi resursları deməyə əsas verir ki, ölkəmiz demokratik tranzit mərhələsini də tezliklə başa vuraraq dünyanın inkişaf etmiş dövlətləri ilə eyni sırada dayanmaq imkanı əldə edəcəkdir.

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, professor***

# Ağstafada Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar silsilə tədbirlər keçirilir





Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin anım günü ilə əlaqədar Ağstafanın ümumtəhsil məktəblərində silsilə tədbirlər keçirilir.

Tədbirlərdə şagirdlərə bu dahi şəxsiyyətin həyatı və onun Azərbaycan naminə, ölkəmizin inkişafı yolunda gördüyü işlər barədə məlumat verilir. Müəllimlər çıxış edərək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, Ümummilli Lider Heydər Əliyevin hələ sağlığında tarixin yaddaşında əbədiləşdiyini diqqətə çatdırırlar.

Növbəti tədbir dahi şəxsiyyətin adını daşıyan mərkəzdə keçirilmişdir. Burada çıxış edənlər Ulu Öndərin Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasında və möhkəmləndirilməsində müstəsna rolundan danışmış, onun uzaqgörən və məqsədyönlü daxili və xarici siyasəti nəticəsində ölkəmizin regionun iqtisadi və siyasi mərkəzlərindən birinə çevrildiyi qeyd olunmuşdur. Diqqətə çatdırılmışdır ki, hazırda Ulu Öndərin siyasi irsini Prezident İlham Əliyev uğurla davam etdirir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Respublika Veteranları Təşkilatında Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilən konfrans keçirilib

Dekabrın 9-da Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının inzibati binasında Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Heydər Əliyev - hüquqi və demokratik dövlət quruculuğunun banisidir" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda çıxış edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova Ulu Öndərin zəngin həyat və fəaliyyətindən, onunla bağlı xatirələrindən danışıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki roluna diqqət çəkib. Qeyd edib ki, məhz dahi şəxsiyyət Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycan dövləti parçalanmaq təhlükəsindən xilas oldu. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirildi, ölkə bütün sahələrdə sürətli inkişaf dövrünə qədəm qoydu.

Sonra Ulu Öndərə həsr olunan "Mən fəxr edirəm ki, azərbaycanlıyam" filmi nümayiş etdirilib.

Daha sonra Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, Azərbaycan Respublikası "Polisə Dəstək" İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranı Şəmsəddin Əliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Abduləli Abdullayev, istefada olan general-mayor Vladimir Timoşenko, fəlsəfə elmləri doktoru, əmək və Birinci Qarabağ müharibəsi veteranı İmran Əbilov, Respublika Veteranları Təşkilatının hüquq və kadrlar şöbəsinin müdiri, professor Bəhram Zahidov və digərləri çıxışlarında Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətlərinə toxunublar. Ulu Öndərin misilsiz xidmətlərinin əsrlərboyu unudulmayacağını vurğulayan natiqlər diqqətə çatdırıblar ki, bu gün Azərbaycan xalqı qalib xalqdır və ərazi bütövlüyünü şanlı Zəfər sayəsində bərpa edib. Güclü ordusu və böyük iqtisadi potensialı olan. Azərbaycanda xalq-ordu-dövlət birliyi sarsılmazdır. Dövləti yaşatmaq, onu inkişaf etdirmək üçün hamımız birlikdə çalışmalıyıq.

Qeyd edilib ki, Azərbaycan dövləti qısa zamanda böyük nailiyyətlər qazanıb. Bütün bunların təməlində isə Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Ümummilli Lider vaxtilə demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin siyasətini davam etdirən Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Dövlətimiz bundan sonra əbədi yaşayacaq, çünki bu dövlət sarsılmaz iqtisadi, siyasi və mənəvi əsaslara söykənir. Ümummilli Lider Heydər Əliyev daim deyirdi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Xalqımız Ulu Öndərin xatirəsini hər zaman ən dərin ehtiramla yad edəcək".

# Gənclər Heydər Əliyev Muzeyini ziyarət ediblər

Gənclər Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyini ziyarət ediblər. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, nazirlik və "Gənc Vətənpərvərlər" İctimai Birliyi tərəfindən təşkil olunan ekskursiyada 30-a yaxın gənc iştirak edib.

Muzeyin zəngin ekspozisiyası ilə tanışlıq zamanı iştirakçılara məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli sərəncamı ilə yaradılıb. Buradakı eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, Ulu Öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir.

Diqqətə çatdırılıb ki, dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada Ulu Öndərin uşaqlıq və gənclik dövrləri, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər, müstəqil Azərbaycanın memarı kimi fəaliyyəti dövrü zəngin materiallarla nümayiş etdirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Günəşli” yatağında daha bir quyunun qazma işləri yekunlaşıb

SOCAR AQŞ 7 saylı dəniz stasionar özülündən 356 nömrəli quyunun qazma işlərini keyfiyyətlə, ətraf mühitə zərər vurmadan və təhlükəsiz şəkildə yekunlaşdırıb.

Şirkətdən AZƏRTAC-a bildirilib ki, quyu yekun təsdiqlənmiş profilə uyğun olaraq qazılıb və sifarişçi SOCAR-ın “Azneft” İstehsalat Birliyinə təhvil verilib.

Quyunun qazılması zamanı Sağlamlıq Texniki Təhlükəsizlik Ətraf Mühitin Mühafizəsi tələblərinə uyğun işlər aparılıb, heç bir bədbəxt hadisə, zədələnmə, quyuda udulma və ya təzahür baş verməyib.

356 saylı quyunun 8,5 seksiyasının (ikinci lülə) qazılması zamanı qazma alətinin aşağı hissəsində təkmilləşdirmə aparılıb və seksiya tam profilə uyğun olaraq qazılıb. Nəticədə 7 istismar kəməri uğurla endirilərək sementlənib və sifarişçiyə yüksək hasilatla təhvil verilib.

SOCAR AQŞ-nin baş direktoru Samir Mollayev deyib: “Quyunun qazılmasında iştirak edən, yaranan çətinliklərin həllində öz töhfəsini verən, qərarların icrasına məsuliyyətlə yanaşan və əməliyyatların düzgün qaydada yerinə yetirilməsində rolu olan SOCAR-ın “Azneft” İstehsalat Birliyinə və SOCAR AQŞ-nin hər bir əməkdaşına təşəkkür edirik. Biz inanırıq ki, gələcəkdə də quyular planlaşdırılmış qaydada heç bir problem yaşanmadan qazılacaq və əməliyyatlar uğurla icra olunacaq”.

## Cari əməliyyatlar hesabının profisiti ÜDM-in 10,7 faizini təşkil edib

Bu ilin yanvar-sentyabr ayları üzrə cari əməliyyatlar hesabının profisiti 3,9 milyard dollar və ya ÜDM-in 10,7 faizini təşkil edib (2020-ci ilin 9 ayı üzrə 208,3 milyon dollar kəsir olmuşdu).

AZƏRTAC Azərbaycan Mərkəzi Bankına istinadla xəbər verir ki, neft-qaz sektoru üzrə cari əməliyyatlar balansının profisiti ötən ilin müvafiq dövrünə nəzərən 2,1 dəfə artaraq 8,2 milyard dollar, qeyri-neft sektoru üzrə cari əməliyyatlar balansının kəsiri isə 1,5 faiz artaraq 4,3 milyard dollar məbləğində olub.

## 11 ayda 2,4 milyard dollarlıq qeyri-neft məhsulları ixrac olunub



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) yaydığı məlumatda bildirir ki, cari ilin 11 ayı ərzində ölkə üzrə qeyri-neft məhsullarının ixracının dəyəri 44 faiz artaraq 2,4 milyard dollar təşkil etmişdir. Bu da manatla ifadədə 4 milyard manatdan çoxdur.

İİTKM-in hazırladığı “İxrac icmalı”nın dekabr sayına əsasən, 2021-ci ilin 11 ayı ərzində Azərbaycanın ixracının dəyəri 19,8 milyard dollar olmuşdur. Qeyri-neft sektoru üzrə ixracın dəyəri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 720,8 milyon dollar (44 faiz) artmışdır.

Ötən 11 ay ərzində meyvə-tərəvəz məhsulları keçən ilin eyni dövrü ilə müqayisədə 258,8 min dollarlıq artaraq 549,8 milyon dollar dəyərində olmuşdur. Müvafiq dövr ərzində qeyri-neft ixracında pambıq iplik üzrə 3,4, qara metallar və onlardan hazırlanan məmulatlar üzrə 2,3, kimya sənayesi məhsulları üzrə 2,7 dəfə, pambıq lifi üzrə 70,2, şəkər üzrə 29,8, alüminium və ondan hazırlanan məmulatlar üzrə 69,3 faiz artım qeydə alınmışdır.

Noyabr ayında isə ixracın dəyəri 2,95 milyard dollar olmuşdur. Qeyri-neft sektoru üzrə ixracda artım 58,7 faizə - 307,2 milyon dollarlığa çatmışdır. Ay ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri ötən ilin müvafiq ayı ilə müqayisədə 1,6 faiz artaraq 98,9 milyon, qeyri-yeyinti məhsulları üzrə 2,2 dəfə artaraq 208,3 milyon dollar təşkil etmişdir.

***“Azərbaycan”***

## Laboratoriyaya Nobel mükafatı laureatının adı verilib

Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) bp şirkətinin hədiyyə etdiyi qida təhlükəsizliyi laboratoriyasına dünya şöhrətli türk molekulyar bioloq, kimya üzrə Nobel mükafatı laureatı Əziz Səncərin adı verilib. Professor Səncər fəxri qonaq qismində bp rəsmiləri ilə birgə bu münasibətlə keçirilən tədbirə qoşularaq öz ürək sözlərini iştirakçılarla bölüşüb.

Böyük alim demişdir: “Mənə göstərilmiş bu hörmət üçün hamıya təşəkkür edirəm. Azərbaycan-türk elminin inkişafında mənim də kiçik bir rolum olarsa, bundan yalnız şərəf duyaram. İnanıram ki, bp-nin hədiyyəsi olan bu laboratoriya tələbələrin daha yüksək bilik almaları və elmi fəaliyyətə yönəlmələri üçün gözəl imkan yaradır.”

Nobel mükafatçısının adını daşıyacaq elmi-tədqiqat obyekti bp-nin UNEC-in tədqiqat potensialının artırılması və ümumilikdə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə universitetə bağışladığı üç laboratoriyadan biridir. Tam təchiz edilmiş müasir laboratoriyalar xüsusi olaraq qida təhlükəsizliyi, qida texnologiyası və ekologiya sahələrində universitetin araşdırma üzrə ehtiyacını qarşılamaq üçün nəzərdə tutulmuşdur. Bu fənlər universitetin müvafiq bakalavr və magistr proqramlarına daxildir ki, bu da UNEC-ə əmək bazarını yüksəkixtisaslı qida mütəxəssisləri ilə təmin etmək üçün imkan yaradır.

UNEC-in rektoru, professor Ədalət Muradov bildirmişdir: “Bu, bizim ən müasir laboratoriyamızdır. bp şirkətinə bizim üçün belə şərait yaratdığına görə təşəkkür edirik. Bu laboratoriyaya Əziz Səncər kimi böyük alimin adının verilməsi tələbələrimizi daha məsuliyyətli etməklə yeni elmi uğurlara səsləyəcək”.

bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bu münasibətlə fikrini belə ifadə etmişdir: “İnanırıq ki, professor Səncərin adı bütün gənc alim və araşdırmaçılara ilham verəcək və onların daim yadına salacaq ki, əsl alim öz xalqına və dünya elminə necə xidmət etməlidir”.

Bu üç laboratoriyadan əlavə, bp UNEC-in elmi-tədqiqat potensialını artırmaq məqsədilə 2022-ci ildə daha bir mühüm layihə həyata keçirməyi planlaşdırır. Laboratoriyaların yeni layihə ilə birlikdə ümumi dəyəri təqribən 500 min AZN-dir.



## Azərbaycanda bərpaolunan enerji üzrə mütəxəssislər hazırlanacaq

Azərbaycan neft-qaz sahəsində uzunmüddətli strateji tərəfdaşı olan bp ilə enerji və nəqliyyat sistemlərinin karbonsuzlaşdırılması istiqamətində də əməkdaşlıq edir. Bu, şirkətin ölkəmizdə həmçinin bərpaolunan enerji layihələrinin həyata keçirilməsində iştirakına imkanlar yaradır.

Bu il noyabrın 11-də Prezident İlham Əliyev bp qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edərkən söhbət zamanı toxunulan məsələlərdən biri də məhz “yaşıl enerji” barədə olmuşdur. bp-nin bərpaolunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edilmişdir, bu sahədə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirilmişdir. Şirkətin işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji ilə bağlı planlarının əhəmiyyəti vurğulanmışdır.

Energetika Nazirliyində keçirilən bir sıra görüşlərdə, o cümlədən Birləşmiş Krallıq Parlamentinin İcmalar Palatasının üzvü və Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə energetika sahəsi ilə bağlı digər məsələlərlə yanaşı, bu mövzuya da toxunulmuşdur. İşğaldan azad edilmiş ərazilərimizdə bp ilə bərpaolunan enerji sahəsi üzrə birgə əməkdaşlıqdan danışılmışdır. Tikilməsi Cəbrayıl rayonu ərazisində nəzərdə tutulan günəş elektrik stansiyası layihəsinin “yaşıl enerji” sahəsində əməkdaşlığa mühüm töhfələr verəcəyinə əminlik ifadə olunmuşdur.

Xatırladaq ki, cari ilin fevral ayında Energetika Nazirliyi ilə bp şirkəti arasında iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın regionlarında və şəhərlərində bərpaolunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu imzalanmışdır. Daha sonra işğaldan azad olunmuş ərazilərdə 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsinin imzalanması baş tutmuşdur.

bp ölkəmizdə bərpa olunan enerji üzrə yeni ali təhsil proqramı da həyata keçirəcək. Bu günlərdə şirkətdən aldığımız məlumatda bildirilir ki, Təhsil Nazirliyi ilə bp arasında yerli universitetlərin birində bərpaolunan enerji mənbələri üzrə yeni ali təhsil proqramının yaradılması ilə bağlı əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb. Sənəd bərpaolunan enerji mənbələri, o cümlədən bu sahədə istifadə edilən texnologiyalar üzrə ixtisaslaşan yerli peşəkarların hazırlanması üçün mühüm bir təhsil layihəsinə dair əməkdaşlığın təməlini qoyur. Bu məqsədlə Böyük Britaniya universitetlərindən biri ilə tərəfdaşlıqda yerli ali təhsil müəssisəsində yeni magistr proqramı yaradılacaq. Protokol çərçivəsində layihənin texniki aspektlərini, o cümlədən icraçı tərəfdaşın seçim meyarlarını müəyyənləşdirmək üçün işçi qrup təşkil olunacaq.

Təhsil naziri Emin Əmrullayev imzalanma mərasimində çıxışı zamanı demişdir: “Dövlət siyasətinin mühüm istiqamətlərindən olan “qara qızıl”ın insan kapitalına çevrilməsi konsepsiyası gənclərin xaricdə təhsilinin dəstəklənməsinə mühüm imkanlar yaradıb. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”ı çərçivəsində 3500-ə yaxın gənc xaricdə təhsil alıb. Bərpaolunan enerji üzrə mütəxəssislərin hazırlanması çox vacib bir məsələdir və bu sahədə bp şirkəti ilə əməkdaşlığı yüksək dəyərləndiririk. Bu proqram çərçivəsində tədqiqat layihələrinin də həyata keçirilməsini planlaşdırırıq”.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bu barədə fikirlərini belə ifadə etmişdir: “Azərbaycanın enerji keçidi üzrə səylərini dəstəkləmək məqsədilə Təhsil Nazirliyi ilə uzunmüddətli və uğurlu əməkdaşlığımızı yeni istiqamətdə genişləndirməkdən böyük məmnunluq duyuruq. Təsis edəcəyimiz yeni universitet proqramı ölkənin bərpaolunan enerji sektorunun inkişafı üçün zəruri olan yeni təcrübə və bacarıqların formalaşdırılması üçün nəzərdə tutulub. Bu, Azərbaycanın enerjinin gələcəyinə doğru atdığı addımları və eləcə də şirkətimizin insanlar və planetimiz üçün enerji haqqında təsəvvürləri yeniləmək məqsədini dəstəkləyən gözəl bir layihədir”.

Layihəni Təhsil Nazirliyi və bp birgə maliyyələşdirəcək. bp bu layihəyə 2 milyon ABŞ dolları həcmində vəsait qoyacaq.

Yeni magistr proqramı çərçivəsində hər il bərpaolunan enerji mənbələri sahəsində təxminən 40 yerli mütəxəssisin hazırlanması gözlənilir.

Xatırladaq ki, bp şirkəti Azərbaycanda 28 ildir neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır və bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Bu vaxtadək bp öz tərəfdaşları ilə birlikdə ölkəmizdə icraçısı olduğu layihələrə təxminən 82 milyard dollar sərmayə qoyub.

Şirkət eyni zamanda Azərbaycanda bir sıra sahələrdə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək verir. Şirkət sosial sərmayələrini yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldir. Fəaliyyətə başladığı vaxtdan indiyədək bp özü və əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 96 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

Onu da bildirək ki, bp-də (Azərbaycanda) ölkəmizin təxminən 2300 vətəndaşı çalışır və bu da şirkətin ixtisaslı işçi heyətinin 90 faizini təşkil edir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Ölkənin xalis maliyyə aktivləri 740,1 milyon dollar artıb

Bu ilin doqquz ayı üzrə ölkənin xalis maliyyə aktivləri 740,1 milyon dollar artıb. Bu göstərici xaricə yönəldilmiş birbaşa investisiyalar (132,2 milyon dollar), portfel investisiyaları (388,2 milyon dollar) və digər investisiyalar (219,7 milyon dollar) hesabına formalaşıb.

AZƏRTAC Azərbaycan Mərkəzi Bankına istinadla xəbər verir ki, hesabat dövründə ölkənin xalis maliyyə öhdəlikləri isə 717,4 milyon dollar azalıb ki, bu da xaricdən cəlb olunmuş xalis birbaşa investisiyalar (-617,1 milyon dollar), neft bonusu (454,1 milyon dollar), portfel investisiyaları (-177,7 milyon dollar) və digər investisiyalar (-376,7 milyon dollar) hesabına formalaşıb.

## Rusiyalı alimlər ADAU-da olmuşlar



Rusiya Milli Elmlər Akademiyasının həqiqi üzvü, baytarlıq elmləri doktoru, akademik Anatoliy Stekolnikovun rəhbərliyi ilə Sankt-Peterburq Dövlət Baytarlıq Təbabəti Universitetinin bir qrup professor-müəllim və tələbə heyəti Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olmuşdur.

ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov universitet haqqında qonaqlara ətraflı məlumat vermişdir. Anatoliy Stekolnikov ADAU-da olmaqdan məmnunluğunu ifadə edərək qarşılıqlı əlaqələrin inkişafının hər iki tərəf üçün faydalı olacağını bildirmişdir.

Bir neçə gün davam edən səfər çərçivəsində qonaqlar ali təhsil müəssisəsinin maddi-texniki bazası ilə yaxından tanış olmuş, tələbələr üçün seminarlar təşkil etmişlər. Səfər çərçivəsində həmçinin Sankt-Peterburq Dövlət Baytarlıq Təbabəti Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında əvvəllər imzalanmış qarşılıqlı əməkdaşlıq memorandumunun vaxtı uzadılmışdır.

Qonaqlar Ermənistanın günahsız mülki insanlara qarşı raket hücumları nəticəsində dağılmış evlərin xarabalıqlarında olmuş, terror aktları nəticəsində həyatlarını itirənlərin xatirəsinə ehtiramlarını bildirmişlər. Rusiyalı qonaqlara məlumat verilmişdir ki, törədilən terrorlarda qadın və uşaqlar olmaqla 26 mülki şəxs həlak olmuş, 142 nəfər yaralanmış, çoxlu sayda mülki obyektə və nəqliyyat vasitəsinə ziyan dəymişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Tovuzda fermerlər üçün səyyar aqrar xidmət təşkil edilmişdir

Kənd Təsərrüfatı Nazirliyinin müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları Tovuz rayonunda vətəndaşlara səyyar xidmətə başlamışdır.



Səyyar aqrar xidmət rayonun Aşağı Öysüzlü, Azaflı, Əsrik Cırdaxan, Yuxarı Öysüzlü, Alakol, Dönük Qırıqlı, Düz Qırıqlı, Əyyublu, Qovlar şəhəri, Aşağı Quşçu, İbrahimhacılı, Dondar Quşçu, Abulbəyli, Düz Cırdaxan, Yanıqlı, Hunanlar, eləcə də Əlimərdanlı, Xatınlı, Qaraxanlı və Qədirli kəndlərində təşkil edilmişdir.

Təsərrüfat sahibləri səyyar xidmət mikroavtobuslarına növbə ilə yaxınlaşaraq müasir kompüter avadanlıqlarından, internet təminatı qurğularından, sürətçıxaran cihazlardan, eləcə də qeydiyyat proseduru üçün lazım olan bütün avadanlıqlardan istifadə edərək, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində öz payızlıq əkinləri barədə məlumatı qeydiyyata aldırmışlar.

Səyyar xidmət rayon sakinləri tərəfindən razılıqla qarşılanmışdır.

## Füzulidə “İnnovasiya Festivalı” keçirilib

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə aqrar innovasiyaların təbliği istiqamətində keçirilən “İnnovasiya Festivalı” öz işini davam etdirir.

Sərgidə “Aqroservis” ASC tərəfindən aqrar sahədə istifadə olunan müasir innovativ texnikalar nümayiş olunub. Səhmdar cəmiyyətin əməkdaşları tərəfindən sərgi iştirakçılarına bu texnikalar haqqında ətraflı məlumat verilib, maarifləndirmə işləri aparılıb.

Füzuli rayonunda keçirilən festivalda rotorlu otbiçən hidravlik, daş xırdalayan, gübrəsəpən 800 lt, aqrodron, aqro-robot, yem konteyneri, feremonlu tələ, “axınlı şan” tipli bal arısı yeşikləri, həmçinin raps, kinoa, amarant, maralfalfa kimi alternativ yem bitkilərinin təqdimatı keçirilib.

Festivalda yem konteyneri qurğusu vasitəsilə buğda, arpa, həmçinin qarğıdalı bitkisindən əldə olunmuş yaşıl yemin nümayişi keçirilib. Bu mobil konteynerler və stasionar komplekslər 7 gün müddətində toxumluq dəni yaşıl yemə çevirmək qabiliyyətinə malikdir.

Həmçinin tədbirdə yaşıl yem kimi raps bitkisinin becərilməsinin əhəmiyyəti barədə geniş məlumat verilib. Bitki zərərvericilərinə qarşı bioloji mübarizə vasitəsi olan feremonlu tələlər, axınlı şan tipli bal arısı yeşikləri nümayiş etdirilib, soxulcan gübrəsi istehsalının texnoloji proseslərini aqrar istehsalçılara aşılamaq məqsədilə biohumus gübrəsinin təqdimatı keçirilib. Tədbirdə iştirak edən fermerlər torpaq, su və digər resurslara qənaət etməklə fasiləsiz olaraq ilin bütün fəsilləri üçün yaşıl yem əldə etməyin səmərəliliyi barədə məlumatlandırılıblar.

## Aqrar İnkişaf Könüllüləri “Smart suvarma” layihəsinin icrasına start verirlər

“Aqrar İnkişaf Könüllüləri” Təşkilatının təşkilatçılığı, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikası Meliorasiya və Su təsərrüfatı ASC-nin tərəfdaşlığı və “Azərsun Holdinq”in dəstəyi ilə “Smart suvarma” layihəsinə start verilir.

“Smart suvarma” layihəsinin məqsədi meliorasiya sisteminin effektiv təşkili, su ehtiyyatlarından səmərəli istifadə və müasir suvarma sistemlərinin tətbiqinin təşviq edilməsidir.

Layihə çərçivəsində Meliorasiya və Su Təsərrüfatı ASC-nin mütəxəssisləri ilə birgə Kürdəmir, Qazax, Füzuli, Beyləqan, Tərtər, Samux və Ağdaş rayonlarına səfərlər təşkil olunacaq və fermerlərlə görüşlər keçiriləcək.

Görüşlərdə fermerlərə müasir dövrdə sudan səmərəli istifadənin təşkili, iqlim dəyişikliyinin kənd təsərrüfatı üçün su ehtiyatlarına təsiri və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün əsas su idarəetmə metodları ilə bağlı təlimlər keçiriləcək.

Növbəti mərhələdə fermerlər üçün meliorasiya və su təsərrüfatı üzrə məlumat bazası formalaşdırılacaq və məlumatlandırıcı bukletlər hazırlanaraq qeyd olunan regionlarda fermerlər və vətandaşlara paylanılacaq.

# Aqil Əliyev - 95

Böyük təbib və filosof Əbu Əli İbn Sina demişdir: "Çox istərdim ki, biləm mən kiməm və bu dünyada nə axtarıram?" Bu sualı bütün zəka sahibləri həmişə özlərinə verirlər. Cavab isə şəxsiyyətlərin daxili aləmlərində, mənəviyyatında, yaradıcılığında öz təcəssümünü tapır. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Aqil Əlirza oğlu Əliyev belə zəka sahiblərindən idi. 95 illik yubileyi ərəfəsində aramızda olmadığı bir zamanda onun haqqında yazmaq, sözsüz ki, çətindir. Bu, onun cismani yoxluğu ilə əlaqədar olsa da, yaratdıqları, iqtisad elmi sahəsində zəngin fikirləri ilə bağlı mülahizə və ideyaları bu gün də dəyərli və əhəmiyyətlidir. Professor Aqil Əlirza oğlu Əliyev, sözün əsl mənasında, ziyalı idi.



# Görkəmli iqtisadçı alim və xeyirxah insan

...1926-cı il dekabrın 10-da vətənimizin ən qədim diyarlarından biri olan Naxçıvanda anadan olmuşdur. Atası Əlirza Cəfər oğlu Əliyev 1943-cü ildə vəfat etmişdir. Atasının vəfatından sonra ailənin ağırlığı yeniyetmə Aqil Əliyevin üzərinə düşmüşdür. Müharibə illərində arxa cəbhədə çalışaraq çətinliklə ailə üzvlərinə kömək edərdi. Anası İzzət xanım sadə bir evdar qadın kimi övladlarının təhsilli olmalarına çox üstünlük verərdi. Odur ki, Aqil Əliyev 1946-cı ildə Bakı Dövlət Universitetinə daxil olmuş və 1951-ci ildə oranı bitirmişdir. 1953-cü ilə qədər Azərbaycan EA-nın Tarix İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır. Həmin ilin may ayında Azərbaycan Tibb Universitetinin siyasi iqtisad kafedrasında əmək fəaliyyətinə başlamışdır. Ömrünün sonuna qədər, yəni 53 il müddətində universitetin siyasi iqtisad kafedrasında müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Aqil Əliyev 1970-ci ildə "Şəhər və kənd əhalisinin həyat səviyyəsinin bir-birinə yaxınlaşması problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır, 1973-cü ildə dosent, 1979-cu ildə isə professor vəzifəsinə seçilmişdir. O, 1982-ci ildə "Şəxsi istehlakın iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsinə yüksəlmişdir.

A.Əliyevin elmi-pedaqoji fəaliyyəti, xidmətləri ayrı-ayrı dövrlərdə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. 1982-ci ildə əməkdar elm xadimi fəxri adına, "Şöhrət" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə, çoxlu sayda medal, fəxri fərman və təşəkkürnamələrə layiq görülmüşdür.

Aqil Əliyev 190-dan artıq elmi əsərin, o cümlədən 32 monoqrafiya və kitabın müəllifi olmuşdur. Çoxsaylı elmlər namizədi və elmlər doktorunun yetişməsində əvəzsiz xidmətlər göstərmişdir.

Azərbaycanda ilk dəfə olaraq "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatın aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri" və digər sanballı monoqrafiyaların müəllifidir.

Aqil müəllim zəngin elmi-pedaqoji təcrübəsi, natiqliyi, əməldə fəzilətliliyi və xeyirxahlığı, fəaliyyətdə mübarizliyi və tükənməz səbri sayəsində insanlıq zirvəsini fəth etmişdir. O, çoxlarının dərdinə çarə tapan, işinə yarayan insan idi.

Aqil müəllim sözünün qədir-qiymətini bilən idi. Görkəmli alimin şəxsiyyəti haqqında o qədər maraqlı faktlar var ki, bəzən bilmirsən hansını deyəsən, hansını yazasan. Aqil Əliyev xeyirxahlığı, prinsipiallığı və mərhəmətliliyi özündə təcəssüm etdirən nurlu bir sima idi. O, sözün əsl mənasında, çox insanlar üçün ümid yeri idi.

Aqil Əliyevin tələbəsi olmuş AMEA-nın müxbir üzvü, professor N.Bayramovun müəllimi haqqında fikirləri çox maraqlıdır: "Nitqində həm amiranəlik və mülayimlik, hərəkətində çeviklik və kübarlıq elementlərini hələ də unutmamışam. İqtisadiyyata dair bilgilər adətən tibb tələbələrinə yad və çətin qavranılan məsələlər idi. Lakin Aqil müəllim iqtisadi məsələləri bizə elə sadə dillə izah edirdi ki, biz bunu asanlıqla anlaya bilirdik. Aqil müəllimin digər bir cəhəti dərs vaxtı tələbələrin fəal olmasına şərait yaratması idi. Hər dərsdə bir neçə tələbəni qaldıraraq mövzunu necə başa düşdüklərini öz sözləri ilə ifadə etməyini tələb edirdi. Dərsdə tələbələrin ona sərbəst sual verməsini çox sevərdi və sualların da ətraflı, sadə dildə izahını verərdi. Bu sual-cavablar siyasi və iqtisadi biliklərimizi artırmaqda bizə çox kömək edərdi.

Aqil müəllim yaddaşımıza tələbələrini sevən, tələbələri tərəfindən də sevilən bir müəllim kimi həkk olunmuşdur".

O, həddən artıq tələbkar idi. Biganəliyi xoşlamırdı. El-obasının qədrini bilən idi, xalqa xidməti həyatının məna və məqsədi hesab edirdi. Aqil müəllim saf əqidəsi və məsləki olan ziyalı idi. Onun əqidəsi humanizmə, həqiqətə, ədalətə söykənirdi.

Onun əmək fəaliyyətində çox gərgin illər də olmuşdur. 1988-ci ildə professor Aqil Əliyev heç bir əsas olmadan işdən uzaqlaşdırılaraq təqaüdə göndərilmişdir. Lakin çox keçmədən bu səhv dərk edilmiş və o, 1992-ci ildə yenidən elmi-pedaqoji fəaliyyətə qaytarılmışdır. 1998-ci ildən ATU-da İqtisadiyyat və hüququn əsasları kafedrasının müdiri vəzifəsində ömrünün sonuna qədər çalışmışdır.

1996-cı ildə A.Əliyev Beynəlxalq Enerji İnformasiya Elmlər Akademiyasının Azərbaycan bölməsinin həqiqi üzvü - akademik seçilmişdir.

O, 2001-ci ildən AMEA-nın müxbir üzvü idi. 2003-cü ildə A.Əliyev Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü seçilmişdir. 2006-cı ilin yanvar ayından Beynəlxalq İqtisadçılar İttifaqının üzvü idi.

Görkəmli alim 1986-2005-ci illərdə Azərbaycanın elmi-texniki inkişafının kompleks proqramının işlənilməsində yaxından iştirak etmişdir. Əhalinin sağlamlığının qorunması üzrə komissiyanın sədri olmuşdur. Əhalinin sağlamlığının qorunması bölməsinin proqramı onun tərəfindən tərtib edilmişdir. O, həmçinin Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsinin inkişaf sxeminin işlənib tərtib olunmasının müəlliflərindən biri idi.

Professor elmi-pedaqoji institutlar və universitetlər üçün "İqtisadi nəzəriyyə" kursu üzrə yazılmış 2 cildlik dərsliyin müəlliflərindən biri olmuşdur.

Aqil Əliyev yüksəkixtisaslı iqtisadçı və tibb kadrlarının hazırlanmasındakı xidmətlərinə görə 1982-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

O, "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatının aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri", "Səhiyyədə iqtisadiyyat, planlaşdırma, idarəetmə, maliyyələşdirmə və əməyin elmi təşkili", "ASK-nın aqrar bölməsində elmi-texniki tərəqqini sürətləndirmə problemləri" və sair sanballı monoqrafiyaların müəllifidir.

Yalnız bazar iqtisadiyyatına keçid şəraitində A.Əliyevin 80 elmi əsəri çap olunmuşdur. O, "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "İpək yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin səviyyəsinin yüksəldilməsinin aktual problemləri", "Naxçıvan Muxtar Respublikası: nailiyyətlər, problemlər" I və II cild, "Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti", "Bələdiyyələr. Metodik kömək", "Dünya iqtisadiyyatı: müasir dövrün problemləri", "Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri" və sair sanballı kitablar yazmışdır.

Professor A.Əliyev zəhmətlə dolu ibrətamiz həyat yolu keçmiş, həyatını bütövlükdə xalqımızın və vətənimizin tərəqqisinə həsr etmişdir. O, ATU-nun və respublikanın ictimai həyatında yaxından iştirak etmişdir.

Bütün həyatı boyu saflıq, əməksevərlik və insansevərlik mücəssiməsi olan Aqil Əliyevin əziz xatirəsi onu istəyənlərin qəlbində daim yaşayacaqdır.

***Qoşqar ƏLİYEV,***
***ATU-nun İctimai fənlər kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor***

# Londonda Azərbaycan dilini tədris edən Mədəniyyət Mərkəzi fəaliyyətə başlayıb

Londonda fəaliyyət göstərən Britaniya Avropa Azərbaycan Məktəbi (British European Azerbaijani School) nəzdində Mədəniyyət Mərkəzi açılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, layihə rəhbərləri tərəfindən mərkəzdə uşaqlara Azərbaycan dilinin tədris olunacağı qeyd olunub. Bundan başqa, Azərbaycanın mədəni-mənəvi dəyərləri, tarixi, coğrafiyası, milli və klassik musiqisinə dair fənlər üzrə dərslər təşkil ediləcək. Yaxın gələcəkdə mərkəzdə Azərbaycan rəqsləri, milli idman oyunları, tətbiqi sənət, rəngkarlıq və qrafika dərslərinin keçirilməsi də planlaşdırılır.

Dərslər hər bazar günü Londonun "Victoria" stansiyası yaxınlığında yerləşən Pimlico Akademiyasında keçiriləcək.

Layihədə valideynlərin maraqları da nəzərə alınıb. Bu məqsədlə "Kitab klubu", "Kino klubu", "Tarix sessiyaları" və s. dərnəklərin fəaliyyətə başlaması gözlənilir.







# Vahid əlaqələndirmə mərkəzlərinə 4700-dən çox şəhid ailəsi üzvü və Vətən müharibəsi iştirakçısı müraciət edib

Bakı şəhərində və Abşeron rayonundakı DOST mərkəzlərində fəaliyyət göstərən vahid əlaqələndirmə mərkəzlərinə 4700-dən çox şəhid ailəsi üzvü və Vətən müharibəsi iştirakçısı müraciət edib.

Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli fərmanına əsasən yaradılan vahid əlaqələndirmə mərkəzləri şəhidlərimizin ailə üzvləri, müharibə əlilləri və Vətən müharibəsində xəsarət almış hərbi qulluqçulara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s. sahələr üzrə xidmətlər göstərir.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin mərkəzlərdə hazırda 21 dövlət orqanı (6 mərkəzi, 15 yerli icra hakimiyyəti orqanı) tərəfindən 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf şəkildə, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilir. Hazırda ölkəmizin regionlarında da vahid əlaqələndirmə mərkəzlərinin yaradılması işləri aparılır.

Ötən müddətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 1638 müraciət, Müdafiə Nazirliyi üzrə 1785 müraciət, Səhiyyə Nazirliyi üzrə 97 müraciət, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə 224 müraciət, yerli icra hakimiyyəti orqanları üzrə 243 müraciət, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi üzrə 105 müraciət, Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 321 müraciət, Çağrı mərkəzi-142 vasitəsilə 288 müraciət edilib.

# İrəvanda Zəngəzur dəhlizi çəkişməsi böyüyür

## Paşinyan Ermənistanın 3+3 platformasında iştirak etməkdə maraqlı olduğunu etiraf edib

Azərbaycanın Zəngəzur dəhlizində israrlı olması son günlərdə Ermənistanda ciddi çəkişmə predmetlərindən birinə çevrilib. Ermənistanda həm iqtidar, həm də müxalifət biri-birlərini Zəngəzur xəyanətində ittiham edir.

Ermənistanın baş naziri Nikol Paşinyan isə ölkə parlamentində çıxışı zamanı "3+3" platforması ilə bağlı mövqeyini təsdiqləyib. Qeyd edib ki, Ermənistanın başqa formatlarda iştirak etdiyi danışıqlara dair məsələlərin müzakirə olunmayacağı halda, Ermənistan bu platformada iştirak etməkdə maraqlıdır.

Xatırladaq ki, Azərbaycan və Türkiyə liderləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan daha əvvəl Şuşada Qarabağ və kommunikasiyaların açılması ilə bağlı altıtərəfli əməkdaşlıq formatı (Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, Türkiyə, İran) təşəbbüsü ilə çıxış ediblər. Təşəbbüs Rusiya Prezidenti Vladimir Putin tərəfindən də dəstəklənib.

Nikol Paşinyan bildirib ki, yaxın günlərdə ilkin görüş formatında "3+3" və ya "3+2" platformasının görüşü baş tutacaq: "Bəli, Ermənistan Respublikası bu görüşdə xarici işlər nazirinin müavini səviyyəsində iştirak edəcək, çünki "ilkin görüş" nazir müavinlərinin iştirakı ilə baş tutacaq. Orada gələcək fəaliyyətlər müzakirə olunacaq". Paşinyan əlavə edib ki, respublika hökuməti fəal regional siyasət yürütmək qərarına gəlib: "Biz regional dialoq üçün effektiv platformalar tapmağa çalışmalıyıq. Bu istiqamətdə mümkün qədər səmərəli işləməyə çalışacağıq".

Göründüyü kimi, Nikol Paşinyan Ermənistanın daha böyük böhrana düçar olmaması üçün kommunikasiyaların açılmasının vacibliyini anlamağa başlayıb. Zəngəzur dəhlizinin açılmasının sülh prosesində mühüm və mümkün irəliləyiş olduğunu da yaxşı bilir. Kommunikasiyaların bərpası Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracaq. Proseslərin bu səpkidə inkişafı Azərbaycan və Ermənistana mühüm dividendlər qazandıracaq, eyni zamanda tərəfdaş dövlətlərə böyük fayda verəcək.

Bütün bunlar nəticə etibarı ilə regionda davamlı sülhün və sabitliyin təmin edilməsində önəmli rol oynayacaq. Sülh müqaviləsinin imzalanması ilə əməkdaşlıq üçün yaranacaq yeni zəmin fonunda Ermənistan çoxdan arzusunda olduğu bir sıra vacib layihələri reallaşdıra bilər.

Bu arada Ermənistan ordusunda xaotik vəziyyət getdikcə daha da dərinləşməkdə, mövcud problemlərin miqyası genişlənməkdədir. Bu hal əsirlikdən qayıdan hərbçilərin fonunda özünü daha qabarıq büruzə verir. Belə ki, "İravnuk" qəzeti yazır ki, əsirlikdən qayıdan və sağlamlığında ciddi problemlər olan biri yenidən orduya cəlb edilib. "43 gün Hadrut meşələrində gizlənən, daha sonra ələ keçərək 200 gün Azərbaycan həbsxanasında qalmış bir əsgər yenidən orduya cəlb edilib. Hansı ki, onun ciddi sağlamlıq problemləri var. Məgər insan amili bu hökumət üçün dəyərli sayılmırmı?"- erməni jurnalist cəmiyyətə açıq sual ünvanlayıb. Həmin əsgərin kimliyi hələlik açıqlanmır. Qeyd edək ki, Ermənistanda səhhətində ciddi problemlər olan gənclərin orduya cəlb edilməsi ilə bağlı dəfələrlə faktlar aşkarlanıb. Amma müharibədə əsir düşmüş birinin yenidən hərbi xidmətə qaytarılması ilk dəfədir ki, baş verir.

Bütün bunların fonunda isə itkin düşən və həbs edilərək Azərbaycanda saxlanılan erməni hərbçilərin yaxınları İrəvanda etiraz aksiyasını davam etdirirlər. Aksiya iştirakçıları Dəmirçiyan küçəsində parlamentin girişinə toplaşaraq spiker Alen Simonyanla görüş tələb edirlər. Fəallardan biri və itkin düşən hərbçinin qohumu Arsen Qukasyan bildirib ki, etirazçılar gecəni Ermənistan parlamentinin qarşısında keçirib və spikerlə danışmaq istəyiblər. Onun sözlərinə görə, bir neçə deputat onlarla danışıb, lakin söhbət qısamüddətli olub.

Dünən keçirilən aksiyada isə etirazçılar İrəvanda yolları bağlayıblar. İqtidarı təmsil edən bəzi deputatlar etirazçıları sakitləşdirməyə və Simonyanın sözlərinə bəhanə tapmağa çalışsalar da, valideynlər spikerin şəxsən görüşə gələrək dediklərinə cavab verməsini tələb ediblər.

Bütün bunlar Ermənistan ordusunda hansı vəziyyətin hökm sürdüyünü göstərməklə yanaşı, bu ölkədə vəziyyətin gündən-günə daha da gərginləşdiyini təsdiq edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azəraqrartikinti" ASC (VÖEN 1300066691)
# 31 dekabr 2020-ci il tarixə konsolidasiya edilmiş illik hesabat

**Maliyyə vəziyyəti haqqında hesabat**
**31 dekabr 2020-ci il**

(manatla)

| Bölümün, maddənin №-si | Göstəricilər | Qeydlər | 2020 | 2019 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | 0.00 | 0.00 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 6 | 1481033,12 | 1371238,92 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | 0,00 | 0,00 |
| 13 | Bioloji aktivlər | | 0,00 | 0,00 |
| 14 | Təbii sərvətlər | | 0,00 | 0,00 |
| 15 | İştirak payı metodu ilə uçota alınan investisiyalar | | 0,00 | 0,00 |
| 16 | Təxirə salınmış vergi aktivləri | | 0,00 | 0,00 |
| 17 | Uzunmüddətli debitor borcları | | 0,00 | 0,00 |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | 0,00 | 0,00 |
| 19 | Sair uzunmüddətli aktivlər | | 0,00 | 0,00 |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **1481033,12** | **1371238,92** |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | 7 | 2902722,44 | 5998072,28 |
| 21 | Qısamüddətli debitor borcları | 8 | 19425943,85 | 19343070,56 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 25580112,24 | 3237693,54 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 10 | 646934,24 | 759184,46 |
| 24 | Sair qısamüddətli aktivlər | 11 | 820 032,79 | 8444131,18 |
| | **Cəmi qısamüddətli aktivlər** | | **49375745,56** | **37782152,02** |
| | **Cəmi aktivlər** | | **50856778,68** | **39153390,94** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 12 | 3517855,17 | 3481157,66 |
| 31 | Emissiya gəliri | | 0.00 | 0.00 |
| 32 | Geri alınmış kapital (səhmlər) | | 0.00 | 0.00 |
| 33 | Kapital ehtiyatları | 13 | 1800000,00 | 1800000,00 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 14 | 23404404,25 | 9968724,65 |
| | **Cəmi kapital** | | **28722259,42** | **15249882,31** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | 0.00 | 0.00 |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | 0.00 | 0.00 |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | 0.00 | 0.00 |
| 43 | Uzunmüddətli kreditor borcları | | 0.00 | 0.00 |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | 0.00 | 0.00 |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | **0,00** | **0,00** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | **0,00** | **0,00** |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | 0.00 | 0.00 |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | 0.00 | 0.00 |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | 0.00 | 0.00 |
| 53 | Qısamüddətli kreditor borcları | 15 | 7282015,74 | 6698695,40 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 16 | 14852503,52 | 17204813,23 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **22134519,26** | **23903508,63** |
| | **Cəmi öhdəliklər** | | **22134519,26** | **23903508,63** |
| | **Cəmi kapital və öhdəliklər** | | **50856778,68** | **39153390,94** |

**Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat**
**31 dekabr 2020-ci il**

(manatla)

| Bölümün, maddənin №-si | Göstəricilər | Qeydlər | 2020 | 2019 |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 17 | 179219716,38 | 225121471,63 |
| 70 | Satışın maya dəyəri | 18 | -159689155,98 | -219031370,73 |
| | **Ümumi mənfəət (zərər)** | | **19530560,40** | **6090100,90** |
| 61 | Sair əməliyyat gəlirləri | | | |
| 71 | Kommersiya xərcləri | | | |
| 72 | İnzibati xərclər | 19 | -1241159,04 | -1225587,38 |
| 73 | Sair əməliyyat xərcləri | | | |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | **18289401,36** | **4864513,52** |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **18289401,36** | **4864513,52** |
| 90 | Mənfəət vergisi | 20 | 3657880,27 | 972902,70 |
| 80 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 21 | **14631521,09** | **3891610,82** |
| | O cümlədən: | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |
| | Digər məcmu gəlir | | | |
| | O cümlədən: | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

**Kapitalda Dəyişikliklər Haqqında Hesabat**
**31 dekabr 2020-ci il**

(manatla)

| Göstəricilər | Qeydlərə istinad | Ödənilmiş nizamnamə kapitalı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | CƏMİ |
|---|---|---|---|---|---|
| **1/1/2019-cu il tarixə qalıq** | | **3481157,66** | **1800000,00** | **0,00** | **5281157,66** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | |
| **1/1/2019-cu il tarixə düzəlişlərdən sonra qalıq** | | 3481157,66 | 1800000,00 | 0,00 | 5281157,66 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | |
| Məzənnə fərqləri | | | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 0,00 | 0,00 | 3891610,82 | 3891610,82 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | |
| **Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31/12/2019-cu il tarixə qalıq** | | 3481157,66 | 1800000,00 | 3891610,82 | 9172768,48 |
| Kapitalın maddələr arasında köçürülmələri | | | | | |
| **31/12/2019-cu il tarixə qalıq** | | **3481157,66** | **1800000,00** | **3891610,82** | **9172768,48** |
| **2019-cu il üzrə kapitalda dəyişikliklərin cəmi** | | 0,00 | 0,00 | 3891610,82 | 3891610,82 |
| **1/1/2020-ci il tarixə qalıq** | | **3481157,66** | **1800000,00** | **3891610,82** | **9172768,48** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | |
| **1/1/2020-ci il tarixə düzəlişlərdən sonra qalıq** | | 3481157,66 | 1800000,00 | 3891610,82 | 9172768,48 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | |
| Məzənnə fərqləri | | | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | 0,00 | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | 14631521,09 | 14631521,09 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | 36697,51 | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | |
| **Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31/12/2020-ci il tarixə qalıq** | | 3517855,17 | 1800000,00 | 18523131,90 | 23840987,07 |
| Kapitalın maddələr arasında köçürülmələri | | | | | |
| **31/12/2020-ci il tarixə qalıq** | | **3517855,17** | **1800000,00** | **18523131,90** | **23840987,07** |
| **2020-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | | **36697,51** | **0,00** | **14631521,09** | **14668218,60** |

**Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat**
**31 dekabr 2020-ci il**

(manatla)

| Göstəricilər | Qeydlər | 2020 | 2019 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 14631521,09 | 3891610,82 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | 0,00 | 0,00 |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | 0,00 | 0,00 |
| fövqəladə gəlirlər və xərclər | | 0,00 | 0,00 |
| mənfəət vergisi üzrə xərclər | | 3657880,27 | 972902,71 |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | 0,00 | 0,00 |
| investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | | 0,00 | 0,00 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| Ehtiyatların (artması) azalması | | 3095349,84 | 1579847,91 |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri (artması) azalması | | 7653475,32 | -3075057,10 |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | | -1768989,37 | -2355944,53 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | 0,00 | 0,00 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | -3657880,27 | -972902,71 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **23611356,88** | **40457,10** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | 0,00 | 0,00 |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | | 0,00 | 0,00 |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| Dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | 0,00 | 0,00 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | 0,00 | 0,00 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | 0,00 | 0,00 |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | | 0,00 | 0,00 |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | 0,00 | 0,00 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | | **0,00** | **0,00** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | | |

**Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti**

| Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti | 2020 | 2019 |
|---|---|---|
| Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | 3237693,54 | 6256244,24 |
| İl ərzində xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | 0,00 | 0,00 |
| Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği | 25580112,24 | 3237693,54 |

**"Azəraqrartikinti" ASC-nin idarə heyətinin sədri** — **R.C.Məmmədov**

**"Azəraqrartikinti" ASC-nin baş mühasibi** — **E.H.Həsənaliyev**

# Şuşa rayonu ərazisində iki mülki şəxsin minaya düşərək həlak olması ilə bağlı cinayət işi başlanıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Şuşa rayonu ərazisində iki mülki şəxsin minaya düşərək həlak olması ilə bağlı yeni məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, dekabrın 9-u Şuşa rayonu ərazisində iki mülki şəxsin minaya düşməsi faktı ilə bağlı prokurorluq orqanları tərəfindən ilkin araşdırma aparılıb. Müəyyən edilib ki, "Voltac" podratçı şirkətinin əməkdaşı 1999-cu il təvəllüdlü Orxan Xanatov və "Cengiz İnşaat" MMC-nin əməkdaşı 1992-ci il təvəllüdlü Vüsal Bəndəliyev həmin ərazidə təmir-tikinti işləri apararkən minaya düşmələri nəticəsində həlak olublar.

Faktla bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə intensiv istintaq hərəkətləri həyata keçirilir.

# *Baş Prokurorluq:* "İşğaldan azad edilmiş ərazilərdə indiyədək 7 hərbi qulluqçu və 29 mülki şəxs minaya düşərək həlak olub"

Azərbaycan Respublikasının Baş Prokurorluğu Vətən müharibəsinin başa çatmasından ötən dövrdə işğaldan azad edilmiş ərazilərdə minaya düşərək həlak olan və xəsarət alan şəxslərin statistikasını açıqlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2020-ci il noyabrın 10-dan hazırkı vaxtadək işğaldan azad edilmiş ərazilərdə minaya düşmələri nəticəsində 7 hərbi qulluqçu və 29 mülki şəxs həlak olub. Bundan başqa, 109 hərbi qulluqçu və 44 mülki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Xatırladaq ki, dekabrın 9-da səhər saatlarında Şuşa rayonu ərazisində iki mülki şəxs - "Voltac" podratçı şirkətinin əməkdaşı 1999-cu il təvəllüdlü Orxan Xanatov və "Cengiz İnşaat" MMC-nin əməkdaşı 1992-ci il təvəllüdlü Vüsal Qəndiyev təmir-tikinti işləri apararkən minaya düşərək həlak olub. Faktla bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və digər maddələri ilə cinayət işi başlanıb.

# ANAMA Şuşa rayonunda iki mülki şəxsin minaya düşərək həlak olması ilə bağlı məlumat yayıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) Şuşa rayonunda iki mülki şəxsin minaya düşərək həlak olması ilə bağlı məlumat yayıb.

ANAMA-nın İctimaiyyətlə əlaqələr və mətbuatla iş şöbəsindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, Şuşa rayonunun Daşaltı kəndindən 1300 metr məsafədə minatəmizləmə əməliyyatlarının icra edilmədiyi ərazidə iki nəfər - 1999-cu il təvəllüdlü Xanatov Orxan Norim oğlu və 1992-ci il təvəllüdlü Qəndiyev Vüsal Firudin oğlu mina partlayışından həlak olub. Hadisə dekabrın 9-da saat 08:30 radələrində baş verib.

Agentliyin təmizləmə qrupu tərəfindən hər iki şəxsin cəsədi minalı ərazidən götürülərək aidiyyəti üzrə təhvil verilib.

Partlayış nəticəsində həlak olan şəxslər Daşaltı kəndində bərpa və quruculuq işlərini həyata keçirən tikinti şirkətinin əməkdaşları olublar.

ANAMA tərəfindən aparılmış ilkin araşdırmalara görə, hadisə düşmənin basdırdığı sürpriz mina partlayışı nəticəsində baş verib. Piyada əleyhinə minanın altına tank əleyhinə minanın qoyulması daha güclü partlayışa və öz növbəsində minaya düşənin ölümünə səbəb olur. Bu tipli sürprizlər Ermənistan tərəfinin terrorçu niyyətinin daha bir bariz nümunəsidir.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işləri ilə məşğul olan şəxslərə növbəti dəfə müraciət edərək bildirir ki, təhlükəli və şübhəli ərazilərə daxil olmasınlar və rastlaşdıqları naməlum əşyalara toxunmasınlar.

# *DSX:* "Son günlər 21 kiloqrama yaxın narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb"

Dövlət sərhədinin etibarlı mühafizəsi, qaçaqmalçılığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri qətiyyətlə davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, son günlər DSX-nin Sərhəd Qoşunlarının "Horadiz", "Göytəpə" və "Şəmkir" sərhəd dəstələrinin əməkdaşları tərəfindən təxmini çəkisi 20 kiloqram 855 qram olan narkotik vasitəyə, 2400 ədəd psixotrop və 4519 ədəd müxtəlif təyinatlı dərman preparatlarına bənzər maddələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Belə ki, noyabrın 24-də saat 17:30 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Amankənd kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sahibsiz halda aşkarlanmış bağlamanın içində ümumi çəkisi 900 qram olan metamfetaminə bənzər maddə aşkarlanaraq götürülüb.

Növbəti gün saat 02:55 radələrində DSX Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində içərisində 4 nəfərin olduğu sarı rəngli "Vaz" markalı, 10-DZ-092 dövlət nömrə nişanlı avtomobilin əraziyə yaxınlaşması və nəqliyyat vasitəsindən iki nəfərin düşərək özlərini şübhəli aparmaları sərhəd naryadının diqqətini cəlb edib. Həmin şəxslər sərhəd naryadının "Dayan" əmrinə tabe olmayaraq, ərazidən bağlama götürüb avtomobillə hadisə yerindən uzaqlaşmağa cəhd ediblər. Onlar Daşburun dairəsi istiqamətində saxlanılıblar. Həmin şəxslərin Bakı şəhər sakinləri 1975-ci il təvəllüdlü Bədəlzadə Azər Araz oğlu, 2004-cü il təvəllüdlü Bədəlov Araz Azər oğlu, 1990-cı il təvəllüdlü Abdullayev Əfqan Fazil oğlu və Beyləqan rayon sakini, 1976-cı il təvəllüdlü Allahverdiyev Elşən İnşallah oğlu olmaları müəyyənləşdirilib. Avtomobilə baxış zamanı bağlamanın içərisində ümumi çəkisi 6 kiloqram 400 qram olan narkotik vasitəyə bənzər maddə (100 qram tiryək, 600 qram heroin, 5200 qram marixuana, 500 qram metamfetamin) və 2000 ədəd tramadol həbi aşkarlanaraq götürülüb. Saxlanılan şəxslərdən əvvəllər narkotik vasitənin istifadəsinə görə məhkum olunmuş A.Bədəlzadə sərhədçilərə qarşı müqavimət göstərərək bıçaqla xəsarət yetirməyə çalışarkən tərk-silah edilib.





Noyabrın 29-da saat 01:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Əhmədalılar kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində naməlum şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınıb. Sərhəd pozucusu əlindəki qaçaqmalı yerə ataraq havanın qaranlıq, ərazinin sıx qamışlıq və relyefin mürəkkəb olmasından istifadə edərək geriyə qaçıb. Əraziyə baxış zamanı aşkarlanmış bağlamadan təxmini çəkisi 11 kiloqram 200 qram narkotik vasitəyə bənzər maddə (8 kiloqram heroin, 3 kiloqram marixuana, 200 qram metamfetamin) götürülüb.

Həmin gün saat 02:05 radələrində DSX Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin Qazax rayonunun "Sınıq körpü" adlanan ərazisi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində Kür çayında Gürcüstandan Azərbaycana doğru rezin qayığın hərəkəti sərhəd naryadı tərəfindən müşahidə olunub. Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayan qayıqdakı şübhəli şəxslər özlərini suya atmış və havanın qaranlıq olmasından istifadə edərək hadisə yerindən qaçmağa nail olublar. Qayığa baxış zamanı içərisində 4519 ədəd müxtəlif çeşidli dərman preparatları aşkarlanaraq götürülüb.

Dekabrın 6-da saat 20:10 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində özünü şübhəli apararaq sərhəd naryadının diqqətini cəlb etmiş 1 nəfər naməlum şəxs ərazidən uzaqlaşmağa cəhd göstərərkən saxlanılıb.

Sumqayıt şəhər sakini, 1984-cü il təvəllüdlü Əzimov Pərviz Əzim oğlu olması müəyyənləşdirilmiş şəxsin üzərinə baxış keçirilərkən bağlamanın içərisində təxmini çəkisi 2 kiloqram 355 qram olan narkotik vasitəyə bənzər maddə (130 qram heroin, 1925 qram marixuana, 300 qram metamfetamin) və 400 ədəd "Gabapentin-300" həbi aşkarlanaraq götürülüb.

Faktlarla bağlı əməliyyat-istintaq hərəkətləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 12.12.2021-ci il saat 23:30-dan etibarən 13.12.2021-ci il səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## Dünya gündəmi

# Ağ Ev və Kreml yeni dialoqa başlayır

ABŞ Prezidenti Co Bayden Donbasda münaqişənin gərginləşməsi fonunda Amerika qoşunlarının Ukraynaya göndərilməsinin mümkünlüyünü istisna edib. Ağ Evdə keçirilmiş mətbuat konfransında Amerika lideri Kiyevin Rusiyanın müdaxiləsi zamanı Ukraynaya mümkün hərbi dəstəklə bağlı suala belə cavab verib: "Bu, nəzərdən keçirilmir".



Amerika Prezidenti bildirib ki, ABŞ-ın NATO üzrə müttəfiqləri qarşısında mənəvi və hüquqi öhdəlikləri var, lakin onlar Ukraynaya şamil edilmir, çünki bu ölkə Şimali Atlantika Alyansının üzvü deyil.

Onun sözlərinə görə, ABŞ Vaşinqtonun NATO üzrə ən azı dörd əsas müttəfiqinin, habelə Rusiyanın iştirakı ilə danışıqlara hazırlaşmağa başlayıb. Bu görüşdə "Şərq cəbhəsində" gərginliyin azaldılması tədbirlərini müzakirə etmək planlaşdırılır.

## Putin Ukraynaya mümkün hücumla bağlı sualı "təxribat" adlandırıb

Putinin Yunanıstanın Baş naziri Kiriakos Mitsotakislə Moskvada keçirdiyi birgə mətbuat konfransında "Kommersant" qəzetinin müxbiri Kremlin başçısına Rusiyanın Ukraynaya mümkün hücumu barədə sual verib. Prezident bu sualı "təxribat" adlandırıb və bildirib ki, Rusiya sülhsevər xarici siyasət yürüdür, lakin öz təhlükəsizliyini təmin etmək hüququna malikdir.

Rusiya Prezidentinin dediyinə görə, Moskva bütün tərəfdaşlarla, o cümlədən ABŞ Prezidenti ilə beynəlxalq siyasət məsələlərini müzakirə edir: "Ukraynanın NATO-ya qəbul edilməsi perspektivi bizi narahat etməyə bilməz, çünki bunun ardınca, şübhəsiz, orada hərbi kontingentlərin, bazaların və bizi təhdid edən silahların yerləşdirilməsi də baş verəcək".

## Putin və Baydenin videosammiti

Rusiya Prezidenti Vladimir Putin və ABŞ Prezidenti Co Bayden arasında müdafiə olunan kanalla qurulmuş videoəlaqə iki saat davam edib.

Kremlin məlumatında bildirilir ki, ümumilikdə, söhbət açıq və işgüzar ovqatda keçib. Görüşdə 2021-ci ilin iyununda Cenevrədə keçirilmiş Rusiya-Amerika sammitinin nəticələrinin həyata keçirilməsindən danışılıb. Rusiya ilə ABŞ arasında ikitərəfli münasibətlərə və digər problemlərə nəzər yetirilərkən ən yüksək səviyyədə əldə olunmuş razılaşmaların ardıcıl həyata keçirilməsinin və "Cenevrə ruhunun" qorunub saxlanılmasının vacibliyi qeyd edilib. Bu kontekstdə prezidentlər İkinci Dünya müharibəsi zamanı iki ölkənin müttəfiqliyini xatırladıblar.

Danışıqlarda əsas yeri Ukraynadaxili böhranla bağlı problemlər tutub. Bundan əlavə, informasiya təhlükəsizliyi, kibercinayətkarlıqla mübarizə, İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planı ətrafında vəziyyət və digər məsələlər müzakirə edilib.

Prezidentlər beynəlxalq təhlükəsizliyin və sabitliyin qorunmasında xüsusi məsuliyyətlərini nəzərə alaraq dialoqu və zəruri təmasları davam etdirəcəkləri barədə fikir bildiriblər.

Liderlər öz nümayəndələrinə bu həssas məsələlərlə bağlı operativ məsləhətləşmələr aparmaq tapşırığı vermək barədə razılıq əldə ediblər.

Bununla yanaşı, videogörüşdən sonra iki ölkə arasında münasibətlərdə "istiliyin" yarandığını demək hələ mümkün deyil. Bunu jurnalistlərə açıqlamasında Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. O, qeyd edib ki, nikbinlik üçün hələ əsas yoxdur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın İdman kompleksinin futbol klubunun direktoru

**VAQİF QASİM OĞLU QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru

**FƏRİDƏ CƏFƏR QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycanın tanınmış tarixçi alimi, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, professor

**FƏRİDƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Menecment kafedrasının müdiri, i.e.n., dosent Fəridə Ələkbərovaya atası

**FƏRİD DADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5586
Sifariş 2560
Qiyməti 40 qəpik